Bu bir xalq qəzetidi

ƏDALƏT

## "YAŞAT" şəhidlərin övladlarına 5000 AZN-lik hesab açacaq

**"YAŞAT" Fondu tərəfindən daha 2 şəhidimizin yeni doğulan övladlarının, şəhidimiz Şəhriyar Ağamalıyevın övladı Şəhrinurun və şəhidimiz Camal İsmayılovun övladı Alparslanın zəruri xərcləri Fond tərəfindən qarşılanıb.**

Fonddan Adalet.az -a verilən məlumata görə, bu məqsədlə 1000 AZN analara təqdim olunub və dünyaya yeni göz açan körpələrin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait Fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər. Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

*Aqil ABBAS*

## AĞANIN PULU GEDİR, MƏMURUN CANI

Bax:səh-3

## Sadiq Gözəlov vəzifəsindən azad edildi



**Daxili İşlər Orqanlarının Maddi-texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun direktoru, ehtiyatda olan polis polkovniki Sadiq Gözəlov vəzifəsindən azad edilib.**

Adalet.az Trend-ə istinadən xəbər verir ki, bu barədə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb. Nazirin əmri ilə S.Gözəlov tutduğu vəzifədən azad edilib.

Xatırladaq ki, S.Gözəlov uzun müddət Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışıb və o, 2017-ci ildə təqaüdə göndərilib.

Həmin vaxtdan polis polkovniki Daxili İşlər Orqanlarının Maddi-texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun direktoru mülki vəzifəsin təyin edilib.

## *Qazilərimiz yüksək texnologiyalı protezlərlə təmin edilir*



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Vətən müharibəsində yaralanmış, reabilitasiya vasitələrinə ehtiyacı olan qazilərimizin yüksək texnologiyalı protezlərlə təminatını həyata keçirir.**

Nazirlikdən Adalet.az -a verilən məlumata görə, bu protezlər Nazirliyin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində dünyanın məhşur protez istehsalçıları ilə əməkdaşlıq şəraitində qurulan sexdə hazırlanır. Həmin reabilitasiya vasitələri yüksək funksionallıq dərəcəsinə malikdir. Elektron oynaq əsasında hərəkətin tam, daha dəqiq tənzimlənməsinə imkan verir, sabit, təhlükəsiz və inamlı hərəkəti təmin edir.

**Təqdim edilən bu videoçarxda qələbəmizin qəhrəmanlarından olan Əliyev Rəşad Amin oğlunun bu günlərdə yüksək texnologiyalı protezlərlə təmin edilməsi prosesi əksini tapıb. Döyüşlərdə ağır yaralanaraq ayağını itirən Rəşad bu reabilitasiya vasitəsi ilə artıq sərbəst şəkildə addımlamaq, rahat hərəkət imkanına malikdir.**

## Ərdoğan: "Türkiyə Ordusunun qarşısında dura biləcək güc yoxdur"



**İraqın şimalında alçaqcasına şəhid edilən qardaşlarımıza Allahdan rəhmət diləyirəm. Bu qardaşlarımız bir qismi 5 ay, bir qismi 6 ay terroçuların əllərində əsir olub.**

**Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

**"Həmin gündən bəri onları terroçuların, alçaqların əlindən qurtamağın yollarını aradıq, çox çalışdıq, ən sonda əməliyyatı həyata keçirildiyimiz gecə qardaşlarımızı qurtamaq istədik", -deyə Ərdoğan vurğulayıb ki, əməliyyat zamanı mağaralarda 42 terrorçu məhv edilib. "Qərb istər anlasın, istər anlamasın, ABŞ-ın açıqlamsı var, "evlərə şənlik". Hanı, bəs terroçuların, PKK-nın, YPG-nın yanında deyildiniz, bal kimi də yanında və arxasındasınız. Təəssüf ki, bunu başından etibarən gördük. Şimali İraqa minlərcə TIR tank, döyüş sursatları göndərdilər və bizim təhlükəsizlik güclərimiz onlarla döyüşdü.**

**Biz sizinlə NATO-da birlikdəyiksə, səmimi davranıb, terroçuların yanında yer almayacaqsınız, bizim yanımızda olacaqsınız. Şəhidlərimizin qanı yerdə qalmadı. 51 terroçu məhv edilib, 53-ü zərəsizləşdirilib. Türkiyə Ordusunun qarşısında duracaq nə terror təşkilatı, nə də güc vardır", - Türkiyə lideri əlavə edib.**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 18 (5850) 16 fevral 2021-ci il | Qiyməti 30 qəpik

## AZAL VERİLDİ İNVESTİSİYA HOLDİNQİNƏ, GUYA NƏ DƏYİŞƏCƏK Kİ?



**AZAL Azərbaycan xalqının ən sevimli təşkilatı, xalq bütün günü AZAL-ın prezidenti (bir ölkədə nə qədər prezident ola bilər ey) Cahangir Əsgərova ömrünün uzun olması üçün dualar oxuyur və Cahangir müəllim də xalqın sevgisini qazanmaq üçün hətta həyatını qurban verməyə hazırdı.**

İndi bu təşkilatı verdilər, daha doğrusu, prezidentliyi verdilər İnvestisiya Holdinqinə.

Deməli, belə. Moskva-Yerevan reysi bizim pulla 135 manatdı.

Moskva-Bakı reysi (AZAL-ın təyyarələri) 350 ABŞ dollarıdı, yəni bizim pulla hesablasaq 600 manat.

İndi İnvestisiya Holdinq bu qiyməti aşağı salacaq, yoxsa yox?

Salmayacaqsa, onda bu islahat kimə lazımdı?

# Prezident Laçında Azərbaycan bayrağını qaldırdı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.**

**Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş komandanı İlham Əliyev Laçın rayonunun Güləbird kəndində Azərbaycan bayrağını qaldırıb:**

**"Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır.**

**Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb".**

Bax:səh-2

## Milli Məclis sədrinin köməkçisi vəzifəsindən azad edilib



**Milli Məclisin sədrinin köməkçisi vəzifəsindən azad edilib.**

**Adalet.az-ın məlumatına görə, Sahibə Qafarovanın müvafiq əmri ilə Milli Məclis sədrinin köməkçisi Fərid Hacıyev vəzifəsindən azad olunub.**

**Bununla da Milli Məclis sədrinin köməkçilərinin sayı 4-dən 3-ə enib. F.Haciyev Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri təyin edilib. S.Qafarovanın daha bir əmri ilə isə Mehdi Dünyamalı oğlu Qurbanov yeni yaradılan Sosial qanunvericilik şöbəsinə müdir müavini təyin edilib.**

## DA ZDRASTVUY NAŞİ İSTİNTAQ ORQANLARI



**Deməli belə, düz 13 aydır Tovuzda 10 yaşlı Nərminənin ölümü ilə bağlı cinayət işi qaldırılıb və İlkin Süleymanov adlı bir nəfər də bu cinayətə görə həbs olunub və istintaq aparılıb. Artıq iş məhkəmədədir.**

Da zdrastvuy naşi istintaq orqanları ki, hələ də bu cinayət işini tam araşdıra bilməyib.

Və 13 aydır bu məsələ gündəmdədir.

Yaşasın bizim istintaq orqanları ki, 13 aya adi bir cinayət işini araşdırıb ortaya çıxara bilməyib.

**Düzdür, Respublika Prokurorluğu artıq bu işi məhkəməyə göndərib, hazırda məhkəmə istintaqı gedir, amma hələ ortada bir şey yoxdu.**

## Hande Harmancı: Vaksin vurdurduqdan sonra özümü çox yaxşı hiss edirəm



**COVİD-19-a qarşı vaksin vurdurduqdan sonra işimə davam etdim, indi özümü çox yaxşı hiss edirəm, heç bir narahatlığım yoxdur.**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib. Onun sözlərinə görə, bu gün COVİD-19-a qarşı peyvəndin ilk dozasını vurdurub: "Bu imkanı yaratdığı üçün Azərbaycan dövlətinə təşəkkür edirəm. Nə qədər çox insan vaksin vurdurarsa, pandemiya ilə mübarizədə o qədər iş görmüş olacağıq. Buna görə də hər kəsi mümkün olduğu zaman vaksin vurdurmağa dəvət edirəm".

Qeyd edək ki, H.Harmancının vaksinasiyası Bakı Sağlamlıq Mərkəzində aparılıb.

## Günün sitatı

***"Qlobal pandemiyadan sonra insan cəmiyyəti heç vaxt əvvəlki dünyaya qayıtmayacaq, ona görə də insanlar "böyük yenilənmənin" bütün imkanlarından yararlanmağa çalışmalıdı".***

**Klaus Şvab, Davos forumunun yaradıcısı və prezidenti**



## *Polis Ağdamda erməni səngərindən silah-sursat aşkarladı*



***Vətən müharibəsində işğaldan azad edilmiş torpaqlarımızda Ermənistan ordusunun atıb qaçdığı odlu silah-sursatın aşkar edilməsi istiqamətində tədbirlər davam etdirilir.***

***DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan Adalet.az-a verilən məlumata görə, Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları rayonun Güllücə kəndi ərazisində xidmətdə olarkən məhv edilmiş düşmən ordusunun vaxtilə qurduğu səngər və istehkamlara baxış keçiriblər.***

***Tədbir zamanı erməni hərbçilərin atıb qaçdığı 9 ədəd əl qumbarası, 9 ədəd qumbara alışdırıcısı və 1 ədəd RPQ-18 qumbaraatanı aşkarlanaraq götürülüb.***

## Pandemiya dövründə 35 mindən çox şəxs nikaha girib

**Pandemiya dövründə nikaha girən şəxslərin sayı bəlli olub. Adalet.az-ın məlumatına görə, "ASAN xidmət"in yaydığı məlumatda bildilir ki, pandemiya dövründə 17 min 887 nikah qeydə alınıb.**

Bununla da ötən ilin mart ayından bu günə kimi 35 min 774 nəfərin nikaha girdiyi bəlli olub.

## *"Sözdə terrorla mübarizə aparanlar qətliama səssiz qaldı"*



**PKK terror təşkilatı hər zaman olduğu kimi öz xainliyini göstərdi. 13 günahsız insanı qətlə yetirdi.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.

O deyib ki, şəhidlərimizin qanı yerdə qalmadı və qalmayacaq.

"Bu iki gündə sözdə terrorizmə qarşı mübarizə apardığını söyləyən ölkələrin PKK-nın qətliamına susduqlarını, ya da "əgər" və "amma"larla qaçmağa çalışdıqlarını görürük", - deyə XİN rəhbəri əlavə edib.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## SOSİALİZM YARIŞI BAŞLADI...



**Keçmişdə sosializm yarışı deyilən bir anlam vardı. Özü də bu yarış bütün sahələri əhatə edirdi, xüsusilə də kənd təsərrüfatı və sənaye müəssisələri arasında.**

**Rayonda kolxozlararası, respublikada rayonlararası, ittifaqda da respublikalararası. Yarışın qalibləri də həm keçici Qırmızı Bayraqla, həm də hədiyyələr və pulla mükafatlandırılırdı. Yarışlarda daha böyük nailiyyətlər qazanmış fərdi şəxslərə də avtomobil bağışlanırdı.**

**İctimaiyyət də bu yarışı maraqla izləyirdi. Və həm də Məhsul bayramları keçirilərdi.**

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ



Hidayət Elvüsal Vəli Xramçaylıya:

**- Vəli, canın üçün dünən metroda bir qız gördüm, dünya gözəli. Yaman qəşəng idi, özümü saxlıya bilmədim, qıza bir göz vurdum.**

Vəli:

- Bəs qız nə dedi qağa?

**- Durdu ayağa, dedi ki, gəl otur əmi.**

# Prezident Laçında Azərbaycan bayrağını qaldırdı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.**

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş komandanı İlham Əliyev Laçın rayonunun Güləbird kəndində Azərbaycan bayrağını qaldırıb:

”Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır.

Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb”.

”Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür.

Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın.

Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim”, - deyə dövlət başçısı çıxışında bildirib.

### *“Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir”*

**”Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək”.**

Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında səfərdə olarkən deyib.

”Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər.

Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq.

İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik.

Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var”, - deyə dövlət başçısı çıxışında bildirib.

### *İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu*

**Prezident İlham Əliyev Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyub.**

Adalet.az xəbər verir ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyətinin olduqca böyük olduğu barədə məlumat verilib. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Dövlət başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.

# Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə səfər edib

**Azərbaycan və Türkiyə prokurorluqları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahinin dəvəti ilə Ankaraya rəsmi səfərə gedib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, fevralın 15-də nümayəndə heyəti Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbiri ziyarət edib. Böyük Atatürkün əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyularaq Baş prokuror tərəfindən xatirə kitabına ürək sözləri yazılıb.

Daha sonra Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğunda ikitərəfli görüş keçirildi.

Ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edərək İraqın Qara bölgəsində xain terror aktı nəticəsində 13 günahsız mülki şəxsin qəddarcasına qətlə yetirilməsi ilə bağlı başsağlığı verib.

Tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini bildirən Baş prokuror bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət", Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir" kəlamları ilə dəqiq ifadə edildiyi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağı, xalqlarımızın rifahına xidmət göstərəcəyini vurğulayıb.



Baş prokuror Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin siyasi iradəsi və müdrik rəhbərliyi ilə uzun illərdən sonra ölkəmizin ərazi bütövlüyünü bərpa edərək BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qətnamələri icra etdiyini vurğulayaraq 44 günlük Vətən müharibəsi dövründə qardaş Türkiyə tərəfindən göstərilən mənəvi dəstəyə görə təşəkkürünü bildirib. Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparıldı, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışıldı, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Azərbaycanın Baş prokuroru tərəfindən Türkdilli Dövlətlərin Baş prokurorlarının Əməkdaşlıq Şurasının yaradılması və təsis iclasının da rəmzi olaraq ölkəmizdə keçirilməsi ilə bağlı təşəbbüs irəli sürülüb. Elə həmin gün nümayəndə heyətinin Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gül ilə görüşü keçirildi. Ölkələrimizin ədliyyə orqanları arasında mövcud əlaqələrin yüksək səviyyədə olduğu vurğulanaraq, iki ölkə arasında ikitrəfli hüquqi əməkdaşlıq, ekstradisiya, hüquqi yardım, prokurorların təlimi və digər maraq kəsb edən mövzular ətraflı müzakirə edilməklə gələcək əməkdaşlıq perspektivləri ətrafında səmərəli və faydalı fikir mübadiləsi aparılıb.

**Görüşlərdə ölkəmizin Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim iştirak edir. Nümayəndə heyətinin səfəri davam edir.**

# Hadruta ilk daxil olan həmlə taborunun komandiri həbs olundu

## Həyat yoldaşı prezidentə müraciət etdi

**Hazırda günahsız saxlanılan Vətən Müharibəsinin iştirakçısı, mayor Kazımov Ziya Məhəddin oğlunun həyat yoldaşı Prezident İlham Əliyevə və I Vitse-prezident Mehriban Əliyevaya müraciət ünvanlayıb.**

Hərbçinin həyat yoldaşı müraciətində Ziya Kazımovun 19 il müddətində Azərbaycan Silahlı Qüvvələrinin tərkibində xüsusi təyinatlı, snayper və kəşfiyyatçı komandir kimi qüsursuz xidmət ediyini və Ali Baş Komandan və Müdafiə Nazirliyinin yüksək zabit heyətinin əmrlərini layiqincə yerinə yetirdiyini və bu xidmətinə görə təltif olunduğunu bildirib.

Yeni Azərbaycan Partiyasının (YAP) üzvü olan hərbçi xanımı Hərbi Prokurorluqda həyat yoldaşının işi ilə bağlı təhqiqatın obyektiv aparıldığına inamsızlığını bildirib. O, Prezidentə müraciətində Ziya Kazımovun böhtan atılaraq günahsız saxlanıldığını bildirib və bu işi şəxsi nəzarətinə götürməyini rica edib.

Müraciətdə qeyd edilib ki, Şuşa ətrafındakı yüksəkliklərin alınması zamanı mərmi partlayışı nəticəsində kəllə-beyin travması, kəskin yaddaş itkisi və xırda yanıqlar (sol ayaq, sağ və sol əl barmaqlarında) alaraq şəxsi heyəti tərəfindən döyüş sahəsindən çıxarılıb hospitala təxliyə edilən mayor 09 noyabr 2020-ci il tarixində hospitala qəbul olunduğu gün travmalı döyüşçünüz Bakı şəhər Prokurorluğunun əməkdaşı tərəfindən aldadılaraq hospitaldan Hərbi Prokurorluğa aparılıb:

***”Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq İdarəsinin mühüm işlər üzrə müstəntiqi, ədliyyə polkovnik-leytenantı Ağakişi Acalov və onun himayədarları həyat yoldaşımın xəstəliyindən istifadə edərək, 2017-ci ildə baş verən hansısa cinayət işini onun qarşısına qoyaraq imzalatmaq istəyiblər. Polkovnik-leytenant Ağakişi Acalov onun qol çəkmədiyini gördükdə, ona ”Sən yaralısan və müalicəyə ehtiyacın var”, - deyib. Lakin sonra ”Amma psixoloji vəziyyətin hospitalda səni saxlamağımıza imkan vermir. Kiməsə ziyan verə bilərsən. Gəl, sən bunu imzala ki, biz səni polis nəzarətində hospitalda müalicə edək. Yoxsa sənə kömək edə bilməyəcəyik”,*** - deyə aldatmağa çalışıb.

Həyat yoldaşımın qol çəkmədiyini gördükdə, onu general-mayor Şəfahət İmanovun yanına aparıblar. Onların nə istədiyini anlamayan həyat yoldaşım heç nəyə qol çəkməyəcəyini deyərək, hospitala göndərilməsini istəyib. Edilən təzyiqlərə baxmayaraq, həyat yoldaşımın imza atmadığını görən adıçəkilən şəxslər ona döyüşdən yayındığını deyiblər. Onun qarşısına ”Biz sənə yaxşılıq edirik. Gəl ağıllı ol, ya səni vətən xaini kimi verəcəyik, ya da 2017-ci ildəki cinayət işinə imza at” şərti qoyulub.

Yoldaşım elə həmin gün, yəni 09 noyabr 2020-ci il tarixində general-mayor Şəfahət İmanovun göstərişi ilə tələm-tələsik məhkəməyə aparılıb. Bakı hərbi Məhkəməsinin hakimi Abbasov Rafiq Qaraxan oğlunun sədrliyi ilə məhkəmə keçirilib. Bakı şəhəri 14 saylı vəkil bürosunun vəkili Telman Əliyev həyat yoldaşıma guya dövlət tərəfindən təyin olunmuş vəkil kimi çıxış edib.



Belə ki, Hərbi Prokurorluğun təsiri ilə hakim Rafiq Abbasov tərəfindən Şuşada döyüşlərin getdiyi gün - 09 noyabr 2020-ci il tarixində 2017-ci ilin cinayət işinə görə 3 (üç) il, bundan öncəki işə görə isə hospitala yenicə qəbul edilmiş döyüşçü barəsində ağır və xüsusilə ağır cinayət törədənlərə münasibətdə olduğu kimi 4 (dörd) aylıq həbs qətimkan tədbiri seçilib. Həyat yoldaşım həbsetmənin müddəti 09 noyabr 2020-ci il tarixindən hesablanmaqla, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasında yerləşdirilib. Hərbi Prokurorluq tərəfindən xüsusi nəzarətə alınması istənilib, ailəsi ilə görüş və telefon danışıq hüququndan məhrum edilib. Həyat yoldaşımın barəsində həbs qətimkan tədbiri haqqında qərara baxdıqda, hakim Rafiq Abbasovun məhkəmə protokollarında saxtalaşdırma edərək həyat yoldaşımın özünü təqsirkar bildiyini yazdırdığı üzə çıxır”.

Müraciətdə həyat yoldaşının günahsız olduğunu vurğulayan hərbçi xanımı buna əmin olduğunu, iki övladı ilə həyat yoldaşının yolunu gözlədiyini bildirərək, Prezidentdən zabitin azad olunması üçün işin nəzarətə götürülməsini xahiş edib. Qeyd edək ki, mayor Kazımov Ziya Məhəddin oğlunun hərbi hissəsinin ”Lələ-illah” dağının qarşısındakı düşmən qüvvələrini məhv edərək həmin yüksəkliyi və düşmən mövqelərini almaqla başlayan döyüş yolu Cəbrayıl, Hadrut, Füzuli və Şuşayadək uzanıb. Xanımı həyat yoldaşının döyüş yolunu belə təsvir edib:

***”60-a yaxın şəhid və 120-dən çox qazisi olan hərbi hissəsi ilə birlikdə ”lələ-illah” dağının qarşısındakı yüksəklik və mövqeləri, Cəbrayıla gedən yolun üzərində yerləşən və ermənilər üçün xüsusi əhəmiyyətə malik ”qırmızı manqa” adlandırılan düşmən mövqeyini, düşmənin Araz çayı boyunca möhkəmləndirdiyi mövqelərini, həmçinin 2-ci Ordu Korpusu komandirinin əmri ilə Milli qəhrəman, polkovnik Şükür Həmidovun sərəncamı altında digər hərbi hissələrimizin köməyinə gedərək, kənd Horadiz və Nüzgar kəndləri istiqamətində Ordumuzun hərəkətini 6 gün ərzində məhdudlaşdıran düşmənin iki mövqeyini bir günə darmadağın edərək hücumun davam etdirilməsinə şərait yaradıb.***

Daha sonra 2-ci Ordu Korpusu komandirinin sərəncamında düşmənin arxasına keçərək Qarakollu, Qarazıllı,Yuxarı Rafadanlı, Aşağı Rafadanlı, Yuxarı Güzlək, Xatınbulaq, Mollavəlili, Qarğabazar və digər kəndləri, Şabandağ və başqa yüksəklikləri şəxsən öz hərbi hissəsi ilə birgə düşməndən azad edib. Cəbrayıl-Füzuli, Cəbrayıl-Hadrut, Hadrut-Füziuli yolunun tam təhlükəsizliyini, o cümlədən, Xüsusi Təyinatlı Qüvvələrin təminat yollarının mühafizəsini təmin etmişdir. Ziya Kazımovun tabeliyində olan hərbi hissə Şuşa ətrafındakı yüksəkliklər uğrunda şərəflə döyüşərək, 44 günlük Vətən Müharibəsində düşməni yüzlərlə canlı qüvvə və texnika itkisinə məruz qoyub. 10-dan çox özüyeriyən top, 10-dan çox zirehli texnika, 20-dən çox avtomobil texnikası, çoxlu silah-sursat, əşya və əmlak, sənəd və sübut, xəritə və 2 erməni əsgəri komandirlik etdiyi hərbi hissə tərəfindən Azərbaycan ordusuna təhvil verilib.

Əgər mənim həyat yoldaşım 2017-ci ildə baş vermiş cinayət işində (4 il bundan öncəki) təqsirli bilinirsə, nə üçün bu müddət ərzində rütbə və vəzifələri artırılıb? Nə üçün hərbi hissə komandiri kimi müqəddəs döyüş tapşırığını yerinə yetirib?”

**Zabitin xanımı müraciətinin sonunda prezident İlham Əliyevdən həyat yoldaşının işini şəxsi nəzarətə götürməyini xahiş edir.**

**(unikal.org)**

Aqil ABBAS

# SOSİALİZM YARIŞI BAŞLADI...

**Keçmişdə sosializm yarışı deyilən bir anlam vardı. Özü də bu yarış bütün sahələri əhatə edirdi, xüsusilə də kənd təsərrüfatı və sənaye müəssisələri arasında.**

**Rayonda kolxozlararası, respublikada rayonlararası, ittifaqda da respublikalararası. Yarışın qalibləri də həm keçici Qırmızı Bayraqla, həm də hədiyyələr və pulla mükafatlandırılırdı. Yarışlarda daha böyük nailiyyətlər qazanmış fərdi şəxslərə də avtomobil bağışlanırdı.**

**İctimaiyyət də bu yarışı maraqla izləyirdi. Və həm də Məhsul bayramları keçirilərdi.**

**İndi belə yarışlar nə rayonlar üzrə keçirilir, nə də respublika üzrə. İttifaq da ki day yoxdu.**

**Amma biz yarışmağa öyrənmişik. İndi ölkədə başqa bir yarış geniş vüsət alıb. Bu da ”Kim daha çox cərimə elətdirər” yarışıdı. Müxtəlif nazirliklər, müxtəlif komitələr, müxtəlif təşkilatlar... Cərimə eləyən təşkilatların sayı cərimə olunanlardan çoxdu.**

**El dilində desək, dəllək müştəridən çoxdu.**

**Qurban olduğumuz hökumət də elə yüksək cərimələr tətbiq edir ki!**

**Məsələn, maska taxmamağa görə 200 manat. Ölkədə də minimum əmək haqqı 250 manatdı. Bu cəriməni tətbiq edənlər deyə bilər ki, canı çıxsın, maskasını taxsın. Amma onu da fikirləşmirlər ki, bəzi insanlar var ki, onlar maskanı taxanda canı çıxır, yəni müəyyən xəstəlikləri var, havaları çatmır. Məcbur olur maskasını bir balaca aşağı endirir. Vəssalam ey, 200 manat. Canın çıxsın, tap ver.**

**Gecə saat 12-dən sonra kafe və restoranlar işləməməlidir. Çox gözəl. Amma bəzən müştəri bir beşon dəqiqə gecikir. Həmin obyektin sahibinin də qanı getdi, müştərinin də yeyib-içdiyi burnundan tökülür. Deməli, virus gecə saat 12-dək yatır, bir dəqiqə keçən kimi hücuma keçir?!**

**Komediyadı ey, başdan-ayağa. Avtobusda ağız-ağıza getmək olar, metroda yox. 40 kv.metrlik avtobusda 60 adam ağız-ağıza gedə bilər, amma 2000 kv.metrilk bir şadlıq sarayında 50 adam bir yerdə çörək yeyə bilməz.**

**40 kv.metrlik avtobusda 60 adam ağız-ağıza gedə bilər, amma 35 minlik stadionda 300 adam müxtəlif sektorlarda bir-birilərindən 50 metr aralı oturub futbola baxa bilməz.**

**Nöşün? Nöşün ki, Ümumdünya Səhiyyə Təşkilatı və onun Azərbaycandakı filialı Operativ Qərargah belə istəyir.**

**Gözəllik salonunda müştəri maskasızdı, cərimələ!**

**Hamamlar fəaliyyət göstərə bilməz. Belə getsə,Bakı şəhər əhalisinin yarısı pandemiyadan sonra kirə çıxacaq. Hamının evində ki hamam yoxdu? İbtidai icma quruluşunldakı kimi gərək çəlləkdə çiməsən.**

**Keçmişdə bir oboxeyis vardı, indi maşallah,on-on beş oboxeyis var.**

**Bəli, nazirliklər, komitələr və müxtəlif təşkilatlar arasında Cərimə yarışı gedir. Görək, bu sosializm yarışının qalibi axırda kim olacaq?**

**Mövzuya qayıdacağıq.**

Səxavət Məmməd

# Ermənilər elə, ya da belə təzminat ödəməlidir



*Müharibə bitəndən sonra erməni tərəfi istər rəsmi, istərsə də qeyri-rəsmi Qarabağla bağlı müxtəlif bəyanatlar verir. Status, qisas, revanş... Əslində mənə görə bunlar normaldır. Səbəblərini uzun-uzadı yazmayacam.*

*Bizim tezislə açıqlama verən politoloqlar deyir ki, ermənilər bunu daxili auditoriya üçün hesablayır. Azərbaycanın səssiz qalması və cəmiyyətdəki narahatlığı nəzərə aldıqda, ermənilər o tip açıqlamalar verməklə, cəmiyyətimizi təzyiq altında saxlamış olur. Bacarırlar da.*

*Bunları niyə yazdığıma gələcəm.*

*Azərbaycan Qarabağda quruculuq işləri görəcək. Məsələ ondadır ki, maddi problemlər göz önündədir. Hətta vəsait çox getməsin deyə, bəzi lüzumsuz, çoxlarının bəyənməyəcəyi addımlar da atmağı planlaşdırılır. Bu barədə başqa vaxt yazacam.*

*Vəsait yoxdur, bunu anlayıram. Həm də, anlamıram. Ermənilər elə, ya da belə təzminat ödəməlidir. Azərbaycan nə rəsmi, nə də qeyri-rəsmi təzminat məsələsini gündəmə gətirmir.*

*Ortada bir 50 milyard söhbəti vardı, o barədə də bir cümlə belə məlumat yoxdur. Mənə görə 50 milyard da gülməli rəqəm idi də, nə isə. Erməni tərəfi revanş məsələsini gündəmə gətirib, cəmiyyəti təzyiqdə saxlayanda, siz niyə təzminat məsələsini ortaya atmırsınız? Erməni tərəfi təzminat ödəyə bilməyəcək, gücü yoxdu. Başqa variantlar mövcuddur. Lap deyək, təzminat ödəməyi qəbul etdilər və bunu 30 ilə yaydılar. Qarabağı bərpa etmək üçün xalqdan vergilərin tutulmasını tələb edirlər. Ödəməyənə erməni damğası vurmağı tələb edənlər də oldu. O təzminat gələndə xalqın cibinə hansı formada qaytarılacaq?*

*Bununla bağlı bir mexanizm düşünən olub? İstər iqtidar, istər müxalif cəbhənin Qarabağın bərpası ilə bağlı təkliflərində buna rast gəlməmişəm.*

*Ümumiyyətlə, təzminat məsələsi niyə üstündən keçilən, görməzdən gəlinən bir mövzudur?*

*Ermənilər özləri də boynuna alır ki, Qarabağdan büdcələrinə kifayət qədər vəsait daxil olub. Təzminat ödəmir, tikintini boynuna qoy.*

*İtirdiyimiz üçün bir əzab, tikmək üçün ayrı əzab? Xahiş edirəm, prosesin uzunluğunu ayrı yerdə ölçün.*

# Aqiyə Naxçıvanlı: "Abidələrin bərpası üçün illərlə edilən müraciətlər indiyədək heç bir nəticə verməyib"

***Müsahibimiz Milli Məclisin deputatı Aqiyə Naxçıvanlıdır.***

**- Aqiyə xanım, dövlətimiz tərəfindən regionların sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə müxtəlif dövlət proqramları həyata keçirilir. Seçildiyiniz regionda bu proqramlardan irəli gələn vəzifələr necə həyata keçirilir? Təmsil etdiyiniz rayonların iqtisadi inkişafı Sizi qane edirmi?**

- "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafi Dövlət Proqramı" ölkənin digər rayonları kimi Oğuz və Qəbələ rayonlarını da geniş əhatə etmişdir. Deputat seçildiyim 2009-cu ildən bu yana regionda müsbət yönə çox dəyişikliklər baş vermişdir. Bildiyiniz kimi, Oğuz mənim dünyaya göz açdığım, böyüyüb boya-başa çatdığım doğma yurdumdur. Yadımdadır, mən parlamentə ilk dəfə namizədliyimi verəndə 2009-cu ilin axırları idi. O zaman Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Oğuzda su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması həyata keçirilirdi. Evimizə getməyə yol tapmaqda çətinlik çəkirdik. Çox keçmədən Oğuz şəhərində keyfiyyətli içməli su şəbəkəsi çəkildi və kanalizasiya sistemi quruldu. Ardı ilə regionda işıq xətlərinin yenilənməsi, kəndlərə yeni qaz xətlərinin çəkilişi, su təchizatının yaxşılaşdırılması, yeni məktəb binalarının, bağçaların tikintisi vüsət almağa başladı. Hər şey qısa zamanda təsəvvür edə bilməyəcəyimiz şəkildə dəyişdi. Yollar asfaltlandı, saatlarla gedib cata bilmədiyimiz məsafələr qısalaraq dəqiqələrlə ölçülməyə başladı. Gözümüzün öyrəşdiyi yolkənarı köhnə tikililər yeni layihələrlə restavrasiya olundu, kəndlərarası marşrutlar işə düşdü, müasir tələblərə cavab verən poçt məntəqələri, Məhkəmə, Statistika, DSMF, Maliyyə binası, Polis şöbəsi tikildi, İdman Olimpiya kompleksi tam gücü ilə xidmət göstərməyə başladı. Oğuz və Qəbələ rayonları turizm istiqamətli regionlara çevrildilər. Kənd təsərrüfatına göstərilən qayğı nəticəsində baramaçılıq, fındıqçılıq, tütünçülük yenidən dirçəldi. Canlı şahidi olduğum qısa zaman fasiləsində görülmüş işlərin hamısını bir-bir sadalamaq mümkün deyil. Sualınıza konkret olaraq cavab verməli olsam, bəli, həqiqətən təmsil etdiyim rayonların iqtisadi inkişafı məni qane edir.

Lakin Dövlət Proqramına daxil edilməsinə baxmayaraq hələ də həllini tapmamış bir sıra məsələlər də vardır. Bunlardan birincisi rabitə sahəsində olan problemlərdir. İllərdir əhalinin kommunal təminatının yaxşılaşdırılması məqsədi ilə su, qaz, enerji, yol təsərrüfatında çox işlər görülmüşdür. Lakin rabitə sahəsində bu irəliləyişlər nədənsə müşahidə olunmur. Ərazimizin elə kəndləri vardır ki, həmin kəndlərdə nəinki internet, heç telefon xətti belə yoxdur. Hətta Oğuz şəhərinin son 10 ildə yeni salınmış Gənclik massivində belə bu xidmət mövcud deyildir. Bununla bağlı şəxsən tərəfimdən əlaqədar qurumlara bir neçə dəfə müraciət ünvanlanmışdır. Axı biz elə bir zamanda, elə bir əsrdə yaşayırıq ki, internet, rabitə olmadan müasir inkişafla ayaqlaşmaq mümkün deyildir. Hələ bunun üzərinə pandemiya dövründə tədrisin, alış-veriş əməliyyatlarının onlayn qaydada aparılmasını əlavə etsək rabitəmizin bizi necə çətin durumda qoyduğunu daha aydın görərik.



*Ərazimizin elə kəndləri vardır ki, həmin kəndlərdə nəinki internet, heç telefon xətti belə yoxdur.*

Oğuzda ikinci əsas problem tarix və mədəniyyət abidələrinin restavrasiyasıdır. Rayonumuzda 32 yerli və respublika əhəmiyyətli abidə vardır. Ancaq onların vəziyyəti və qorunması heç də qənaətbəxş səviyyədə deyildir. Abidələrin əksəriyyəti dağılmış, bəziləri itmək üzrə, bəziləri isə qəzalı vəziyyətdə bərpasını gözləyir. Düzdür qeydə alınmış abidələrin mühafizəsi dövlət tərəfindən həyata keçirilir, lakin bu onları məhv olmaqdan qorumur. Restavrasiya işlərinə ciddi ehtiyac vardır. Bərpa üçün illərlə edilən müraciətlər indiyədək heç bir nəticə verməmişdir. Oğuz rayonu həm təbiətinə, həm tarixinə, həm də relyefinə görə turizm potensialı olan bir rayondur. Bu potensialı inkişaf etdirmək üçün elə birinci abidələrin bərpasına, ətraflarının abadlaşdırılmasına və onlara gedən yolların salınmasına ehtiyac vardır. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Hazırda dünyada baş verən siyasi proseslər nəticəsində minlərlə abidə məhv olmaq təhlükəsindədir. Abidələr və tarixi yerlərin məhv olmaq təhlükəsi ölkəmizdən də yan ötməyib. Torpaqlarımızı 27 il işğal altında saxlamış Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Biz yerdə qalan tarixi abidələrimizə diqqəti artırmalı, onları nəsillərdən-nəsillərə çatdırmaq üçün əlimizdən gələni əsirgəməməliyik. Bu həm də bizim gələcək qarşısında vəzifə borcumuzdur. Çünki gənc nəsil mənsub olduğu xalqın tarixini dərindən öyrənib, öz doğma vətəni ilə fəxr etməlidir.

Üçüncü məsələ isə əraziyə investisiya qoyuluşudur. Bu sahədə də işlər çox zəif gedir. Rayonumuz əsasən kənd təsərrüfatı istiqamətlidir. Təbiətimiz zəngindir. Meşələrimiz giləmeyvələrlə, dərman bitkiləri ilə doludur. Heyvandarlığın inişaf etdirlməsi sayəsində ət, süd, yun istehsalı dəfələrlə artmışdır. Burada kiçik emal sexlərinin açılmasına ehtiyac vardır. Rayonumuz həm də turizm rayonudur. Gəlin baxaq görək bu sahədə də investisiya qoyuluşu ürəkaçandırmı? Sahibkarlarımız turizm sahəsində icazə almaq üçün müəyyən problemlər yaşayırlar. Sizə təcrübəmdən bir misal çəkim: IV cağırış Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçildiyim dövrdən bu günədək seçicim olan bir nəfər Oğuz şəhər sakini hər il mənə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentindən icazə (müqavilə) alınması üçünköməklik göstərilməsini xahiş edir. Mən isə öz növbəmdə onun müraciətini aidiyyatı üzrə həmin nazirliyə ünvanlayıram. Lakin bugünədək məsələ müxtəlif bəhanələrlə uzadılır, vətəndaşa fəliyyətini davam etdirməsi üçün rəsmi icazə verilmir.

**- Artıq 3-cü çağırışdır ki, Milli Məclisə deputat seçilirsiniz. Necə deyərlər bu sahədə kifayət qədər təcrübəniz var. Hər zaman da parlamentin tribunasından müxtəlif problemləri səsləndirirsiniz. Qaldırdığınız məsələlərin öz həllini tapması ilə bağlı müraciət etdiyiniz dövlət qurumlarının fəaliyyəti Sizi qane edirmi?**

- Bildiyiniz kimi hər bir deputat öz fəaliyyətini Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Azərbaycan Respublikasının Qanununu rəhbər tutaraq həyata keçirir. Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında iştirak edir, qanunvericilik təşəbbüsü ilə çıxış edir, sörğu göndərir, seçicilərlə iş aparır və sairə. Mən də həm deputatı olduğum ərazidə ortaya çıxan və seçicilərimi narahat edən məsələlərin həllinə, həm də ümümrespublika əhəmiyyətli qanun və qərarların qəbul olunmasına töhfəmi verməyə özümü borclu sayıram. Bu zaman biz dövlət qurumları ilə əlaqəli iş aparmağa, onlara müxtəlif məzmunlu müraciətlər ünvanlamağa məcburuq. Qeyd etdiyim hal qanunyaratma prossesi ilə bərabər seçici müraciətləri ilə də bağlı olur. Düzdür, əvvəllər bəzi dövlət qurumlarının tərəfimizdən göndərilən məktublara o qədər də ciddi yanaşmamaları müşahidə olunurdu. Ancaq son illər Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan kadr islahatları bu halın tamamilə aradan qaldırılmasına səbəb olmuşdur. Göndərilən məktublara dərhal reaksiya verilir, icrası həm karğüzarlıq, həm də qanunvericiliyin tələblərinə uyğun yerinə yetirilir.

**- Aqiyə xanım, mətbuatdan da izləyirik ki, mütəmadi olaraq seçicilərinizlə görüşürsünüz, onların problemləri ilə maraqlanırsınız. Seçiciləriniz əsasən hansı problemlərlə bağlı Sizə müraciət edirlər?**

- Müraciətlər əsasən şəxsi problemlərlə bağlı, vətəndaşların sosial müdafiə məslələri barədə olur. Məsələn: sağlamlığında yaranmış problemlərin müalicəsi, maddi yardım, işlə təmin olunma, torpaq məsələləri kimi müraciətlər əsas yer tutur. Ancaq ümid edirəm ki, artıq bəzi qurumlarda aparılan islahatlar, vətəndaş müraciətlərinə təmas olmadan elektron şəkildə baxılması tədricən bu şikayətlərin də azalmasına gətirib çıxaracaqdır.

**- Aqiyə xanım, məlum olduğu kimi bir neçə gün bundan öncə Prezident İlham Əliyevin imzaladığı sərəncamla növbəti 10 il üçün ölkənin sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər müəyyən edildi. Sizcə bu prioritetlər ölkə iqtisadiyyatının inkişafına hansı töhfələri verəcək?**

- Mətbuata verdiyim açıqlamalarda mən dəfələrlə qeyd etmişəm ki, bu gün Azərbaycan iqtisadiyyatının inkişaf sürəti, dinamikası çox yüksəkdir. Hətta mən deyərdim ki, bu dinamika indiyədək dünyanın heç bir başqa ölkəsində müşahidə olunmamışdır. Bununla belə dövlətimizin başçısı tərəfindən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyən edilmiş beş Milli Prioritet: Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış; Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi - ölkə iqtisadiyyatının inkişafını artıq tamamilə yeni, keyfiyyətcə daha yüksək və daha dinamik bir mərhələyə çıxaracaq. Çünki Prezident İlham Əliyevin həyata keçirdiyi bütün möhtəşəm layihə və proqramlar kimi, bu Milli Prioritetlər də Azərbaycan xalqının rifah səviyyəsinin yüksəldilməsinə və dövlətimizin iqtisadi-siyasi qüdrətinin artmasına dəqiq hesablanmışdır. İlk növbədə 2030-cu ilədək olan dövr ərzində də ölkəmizin daha sürətli və davamlı inkişafı üçün cəmiyyət, biznes strukturları və dövlət orqanları arasında əlaqələrin möhkəmləndirilməsi çox vacibdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş Milli Prioritetlər də ilk növbədə məhz bu məqamların ön plana çəkilməsini və bu əsasla Azərbaycanın iqtisadi suverenliyinin daha da möhkəmləndirilməsini, müasir, yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsini nəzərdə tutur.

*Ali Baş Komandan, cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Ordusu zəfər çalaraq bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan xalqı qarşısına qoyduğu hər bir vəzifəni qətiyyətlə yerinə yetirə bilər.*

**- Ötən il Azərbaycanın tarixinə Vətən Müharibəsində qazandığımız Zəfər ili kimi yazıldı. Təmsil etdiyiniz bölgənin də bu Zəfərdə öz payı vardır...**

- 44 günlük Vətən Müharibəsi tariximizin şanlı səhifəsidir. Azərbaycan özünün ərazi bütövlüyünü bərpa etdi.

Ali Baş Komandan, cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Ordusu zəfər çalaraq bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan xalqı qarşısına qoyduğu hər bir vəzifəni qətiyyətlə yerinə yetirə bilər. 27 ildir işğal altında olan torpaqların düşməndən geri alınmasında deputatı olduğum ərazinin mərd oğullarının da məxsusi əməyi olmuşdur. Elə müharibənin ilk günlərindən yüzlərlə oğuzlu və qəbələli igidlər könüllü şəkildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Yerli bölmələrinə müraciət edərək müharibəyə getmək istədiklərni bildirmiş, cəbhəyə yollanaraq vətənin müdafiəsində şücaət göstərmiş, mərdliklə iştirak etmişlər. Təəssüf ki, bütün müharibələr kimi bizim haqq yolunda apardığımız savaş da itkisiz olmamışdır. Bu müharibədə Oğuz rayonu 24, seçki dairəmizə daxil olan Qəbələ rayonunun 18 kəndi isə 11 şəhid vermişdir. Allahdan bütün şəhidlərimizin ailələrinə səbr diləyirəm...

**Nicat NOVRUZOĞLU**

# "Qarabağ get-gedə bölgənin döyünən qəlbinə çevriləcək"

**Azərbaycanın Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.**

Səfərin önəmini şərh edən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidməti rəhbərinin müavini, politoloq Tural İsmayılov bildirib ki, ali baş komandan qalib fateh kimi torpaqlarımızı ziyarət edir: "Ölkə başçısı cənab İlham Əliyev 30 ilə yaxındır düşmənin işğalı altında qalan Qarabağın azad olunmağı üçün bu illər ərzində güclü dövlətçilik təməlləri hazırlayıb. Məhz onun liderliyi, siyasi səriştəsi nəticəsində güclənən Azərbaycan regional siyasi güc mərkəzi halına gəlib. 30 ilə yaxın müddətdə ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf və tərəqqi strategiyası ölkə başçısı tərəfindən davam etdirilib. Ölkədə bütün sahələrdə mühüm islahatlar həyata keçirilib. İdarəçiliyin asanlaşdırılması və bu zaman vətəndaş məmnunluğunun təmin edilməsi də strateji xətt olaraq daim diqqət mərkəzində olub.Ölkə başçısının güclü xarici siyasət kursu daxili siyasi islahatlarla tandem şəklində davam edib. Prezident 2018-ci ilin avqust ayında əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlərin göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyini (DOST) yaratmışdır. Ümumilikdə, "ASAN xidmət", "ASAN kommunal" və "DOST" kimi modern xidmət mərkəzlərinin yaradılması ilə inkişaf edən ölkədə tamam fərqli və yeni bir səhifə yaratdı. 2003-cü ildən etibarən Azərbaycanın iqtisadi sahədə həyata keçirdiyi siyasətin uğurlarını şərtləndirən əsas amillərdən biri də məhz inkişafın mərkəz və regionlar üzrə tarazlı xarakter daşıması, rentabelli istehsal sahələrinin ölkənin bütün regionlarını əhatə etməsi, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, infrastrukturun yeniləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlıdır. Məhz bu iqtisadi strategiya regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsinə imkan yaratdı. Bundan sonra işğaldan azad olun torpaqlarımıza da köçkünlərimiz qayıdacaq, yeni iş imkanları yaranacaq və ölkədə sosial rifah daha da yüksək səviyyəyə çatacaq. Yürüdülən uğurlu iqtisadi siyasət - çevik və şəffaf vergi-gömrük islahatları nəticəsində son aylarda ölkəmizin maliyyə imkanlarının daha da artması ilə paralel dövlət başçısı



uğurlu sosial islahatlar paketinin reallaşdırılmasını təmin etdi. Təkcə onu demək lazımdır ki, bu prosesin əyani təzahürü olaraq icbari tibbi sığorta sisteminin tətbiqi təmin edilmiş, bu sistemin 2020-ci ildən bütün ölkədə tətbiqi nəzərdə tutulmuşdu. Daha sonra, İşsizlikdən Sığorta Fondunun yaradılması, məşğulluq strategiyasının qəbulu, ünvanlı sosial yardımın əhatə dairəsinin genişləndirilməsi, özünüməşğulluq proqramlarının təmin edilməsi sosial islahatların mühüm tərkib hissəsidir."

***Ekspert bildirib ki, sosial islahatlar kontekstində ordu quruculuğu sahəsində də böyük işlər görülüb:***

" Müstəqillik illəri ərzində Ordu quruculuğunun əsas tərkib hissəsi olan hərbi təhsil, ixtisaslı hərbi kadrların hazırlanması prosesinə ciddi diqqət yetirldi. Əsası Naxçıvanski adına hərbi liseylə qoyulan hərbi təhsil müəssisələrimizin sayı nüfuzlu ali hərbi təhsil ocaqları hesabına daha da genişləndi. 1997-ci ildə BAÜKM bazasında Azərbaycan Ali Hərbi Məktəbi yaradıldı. Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. Prezidentin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi təşkil edildi.

Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin də ölkəmizin müdafiə qüdrətinin artırılmasında xüsusi rolu var. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyəyə, Rusiyaya, Ukraynaya, Pakistana, Çinə və digər ölkələrə göndərildi. Eyni zamanda Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir. Eyni zamanda ölkəmiz Qoşulmama Hərəkatı kimi önəmli bir beynəlxalq siyasi təşkilata rəhbərlik edərək siyasi güc olduğunu bir daha dünyaya nümayiş etdirir."

Politoloq qeyd edib ki, Azərbaycanın uğurları, ali baş komandanımızın qalib fateh kimi işğaldan azad olunan bölgələrə səfəri Azərbaycanın uğurunu sevməyən bütün düşmənlərə "göz dağı" verir:

**"Qarabağ get-gedə bölgənin döyünən qəlbinə çevriləcək. Regional əhəmiyyətli layihələrin əsas mərkəzi olacaq. Məkrli işğalçıların viran qoyduğu yerlərdə bu gün dövlət başçısının qətiyyəti ilə yeni idarəetmə modeli tətbiq edilir, "ağıllı kənd" kimi innovativ və yeni sistemlər tətbiq edilir. Cənab Prezident şəhidlərimizin qanı bahasına alınan torpaqlarımızda ölkəmizi hədələyən müyyən siyasi dairələrin də gələcəkdə hansısa təxribatlar edərsə hansı vəziyyətə düşəcəyini də əyani nümayiş etdirir. Azərbaycan Prezidentinin Qarabağa olan səfərləri həm də xalqımızda yüksək əhval-ruhiyyə yaradır. İnsanlarımız qalib liderin ətrafında vətəndaş həmrəyliyinin real mənzərəsini formalaşdırırlar."**

**Emin Piri**

*Aqil ABBAS*

# AĞANIN PULU GEDİR, MƏMURUN CANI

***Deməli, sosial şəbəkələrdə və saytlarda Neftçala rayonundan olan 19 yaşlı qazi M.Həsənov ayağını dizdən aşağı itirdiyinə görə 3-cü qrup əlil hesab edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sözçüsü Fazil Talıbov həm əlilin şikayətinə, həm də xalqın reaksiyasına belə cavab verib ki, onlar Nazirlər Kabinetinin qərarına görə əlillik qrupunu müəyyən edirlər. Deməli, həmin qərarda belədir ki, əgər ayaq dizdən aşağı kəsilirsə 3-cü qrup, dizdən yuxarı kəsilirsə 2-ci qrup, iki ayağını itirirsə 1-ci qrup sayılır.***

***Olsun, sözümüz yox. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müəyyən təlimatlar əsasında işləyir. Əvvəla, Nazirlər Kabineti nəyə görə belə bir qərar verir, daha doğrusu, nəyə əsaslanır? Əlilliyi müəyyən edən həkimlərdilər, onlar rəy verməlidirlər ki, bu neçə faiz əmək qabiliyyətini itirib. Ondan sonra qrup məsələsi ortaya çıxar.***

***İkincisi. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Nazirlər Kabinetinə etirazını bildirməlidir ki, bu düz deyil. 19 yaşlı bir gənc bu vətən yolunda, bu millət yolunda, onun taleyini həll edləcək Nazirlər Kabinetinin və müvafiq nazirliyin rəhbərlərinin yolunda döyüşə gedib, ayağını itirib və münasibət də bu.***

***Cənab Prezident şəhid ailələrinə, Qarabağda döyüşlərdə yaralanıb sağlamlığını itirmiş qazilərə, veteranlara bu qədər diqqət göstərir, onların normal yaşaması üçün, heç kimdən asılı olmamaları üçün, ehtiyac çəkməmələri üçün əlindən gələni edir. Amma çox təəssüf ki, müvafiq icra orqanları insanları belə get-gələ salır, əziyyət verir və sair və ilaxır.***

***Bu yazını diqtə edərkən rayonların birindən yanıma bir qazi gəlmişdi. Qoltuğunda iki çəlik, çətinliklə yeriyir, bədəni deşik-deşik. Nitqini demək olar ki, itirib, fikrini çətinliklə çatdırır.***

***Şikayəti nə idi? Müharibə artıq dördüncü aydır bitib. Bu qazi dörd aydır qalıb xəstəxanaların, hospitalların qabağında, hələ də nə tərxis oluna bilir, nə də əlillik dərəcəsini ala bilir. Bakıya da gəlib-getməyə yol pulu yoxdu. Avtobus işləmir, taksi də birbaşa 20 manat, yəqin ki, bir 20 manat da yemək, gəlib-getmək 60 manat edir.***

***Deyir, yenə sağ olsun, icra hakimiyyəti başçısı, həm evimizə hər ay ərzaqla yardım edir, həm də gəlib-getmək xərcimi ödəyir. Amma bu nə qədər olacaq?***

***Onu da qeyd edim ki, yanıma gələn qazi Ali Baş Komandan tərəfindən 3 medalla təltif edilib, iki uşağı var.***

***Onu da deyir ki, əvvəllər iki övladına görə sosial yardım alırdı, onu da kəsiblər.***

***Və bunlar birdimi, ikidimi, beşdimi? Niyə süründürürsünüz? Eləcə də hörmətli Müdafiə Nazirliyi, bəlkə siz də döyüşçülərinizlə daha ciddi məşğul olasınız?!***

***Hörmətli məmurlar, 5-ci kalonu başa düşdük, bəs, siz neçənci kalonsunuz ki, xalqla iqtidar arasında belə narazılıq yaradırsınız?***

***Gözü çıxan qardaşları görmürsünüz deyəsən. Bu da növbəti yazıda.***

*Zaur Əhməd*

# Biz əzəli düşmənimizə qalib gəldik, qaldı içimizdəki xainlər



**"Hazırda həbsdə olan Vətən Müharibəsinin iştirakçısı, mayor Kazımov Ziya Məhəddin oğlu barədə bir neçə cümlə yazmaq istəyirəm. Şəxsən tanışlığım yoxdur, amma etibar etdiyim yoldaşlardan öyrəndiyim qədəri şərəfini qoruyan zabitlərimizdəndir. Düşmənə qarşı amansız mübarizə aparıb.**

**19 il müddətində Azərbaycan Silahlı Qüvvələrinin tərkibində xüsusi təyinatlı, snayper və kəşfiyyatçı komandir kimi qüsursuz xidmət edib və Ali Baş Komandan və Müdafiə Nazirliyinin yüksək zabit heyətinin əmrlərini layiqincə yerinə yetirdiyi və bu xidmətilərinə görə təltif olunub. Vətən müharibəsində də xüsusi xidmətləri olub. Amma...**

**Şuşa ətrafındakı yüksəkliklərin alınması zamanı mərmi partlayışı nəticəsində kəllə-beyin travması, kəskin yaddaş itkisi və xırda yanıqlar (sol ayaq, sağ və sol əl barmaqlarında) alaraq şəxsi heyəti tərəfindən döyüş sahəsindən çıxarılıb hospitala təxliyə edilən mayor Kazımov 09 noyabr 2020-ci il tarixində hospitala qəbul olunduğu gün travmalı döyüşçümüz hospitaldan Hərbi Prokurorluğa aparılıb və...**

**Detallara varmaq istəmirəm, çünki özlərini ədalət carçısı kimi göstərənlərin çoxundan daha dövlətçiyəm, nəyi nə zaman, necə düyəcəyimi də yaxşı bilurəm. Bu oğlan xidməti yüksək səviyyədə aparıb, indi ədalətsizliyə qurban gedərək haqsız yerə həbsxanadadır...**

**Biz əzəli düşmənimizə qalib gəldik, qaldı içimizdəki xainlər. Onlarla da bacaracağıq"...**

## *Rusiya sülhməramlıları Xocavəndi minalardan təmizlədi*



*Rusiya sülhməramlı qüvvələrinin mühəndis bölmələri tərəfindən ötən ilin 23 noyabr tarixindən etibarən Dağlıq Qarabağda 1371,3 hektardan çox ərazi minalardan təmizlənib. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, əməliyyatlar zamanı 429,8 kilometr yol, 1308 bina, 29 sosial əhəmiyyətli obyekt minalardan təmizlənib. Həmçinin 24 289 partlayıcı maddə aşkar edilərək zərərsizləşdirilib. Rusiya Müdafiə Nazirliyinin Beynəlxalq Ərazilərin Minalardan Təmizlənməsi Mərkəzinin mütəxəssisləri Xocavənd şəhərində ərazilərin minalardan təmizlənməsi üzrə işləri başa çatdırıblar.*

***MEHRİBAN***

# PİYADA KEÇİDDƏ VURULURSA...

## Buna görə məsuliyyəti kim daşıyır?!

**Bu gün respublikamızda ən çox piyadavurma halları Bakı şəhərində qeydə alınıb. Üstəlik də, paytaxtda baş vermiş yol-nəqliyyat hadisələrinin 52 faizindən çoxu piyadalarla bağlıdır. Artıq bu o deməkdir ki, Bakıda piyadalar hərəkətin təhlükəsizliyi ilə bağlı mövcud qaydalara və "Yol hərəkəti haqqında" qanuna çox soyuq münasibət bəsləyirlər. Ən azından ona görə ki, onlar təyin olunmuş yerdən yox, hərəkətin və avtomobillərin sıx olduğu küçələrdən və prospektlərdən keçməyə can atırlar.**







### Yaxınlıqda yolüstü keçid olduğu halda,

piyadaçı 20-30 metr getməyə ərinir. Məsələn, Bakı Hava limanına gedən yolda avtomobillərin yüksək sürətlə hərəkət etdiyi 4-5 zolaqlı yoldan keçməyə can atır. Bəlkə də bəzi gənclər qısa zaman kəsiyində həyatlarını təhlükə qarşısında qoyaraq bu yolu keçməyi bacarır. Amma əksər insanlar, xüsusən qoca və orta yaşlı adamlar hərəkətin intensiv olduğu bu yerləri keçərkən avtomobillər tərəfindən vurulur və onlar dünyasını dəyişirlər.

Hətta təhlükəsiz şəhər kameralarında hava limanına gedən yolda nəqliyyat vasitələrinin hərəkətini izləyərkən bir zolaqdan birtəhər keçib, ikinci zolaqdan keçə bilməyən və avtomobillə vurulan neçə-neçə görüntülərin şahidi olmuşuq. Xüsusən də havanın qeyri-sabit keçdiyi, yəni yağışlı-yağmurlu günlərdə piyadalar tərəfindən yol hərəkəti qaydasının pozulması, özü də avtomobillərin yüksək sürətlə şütüdüyü vaxt yolu keçməyə cəhd etməsi onları ölümə daha da yaxınlaşdırır.

***Təəssüflə qeyd etməliyik ki, əksər piyadalar təyin olunmuş yerdən keçməyə yox, hərəkətin intensiv olduğu yollardan keçməyə çalışırlar. Bu isə birmənalı olaraq sürücüləri çaşdırır, bir avtomobildən canını qurtaran piyada digər avtomobilin qurbanına çevrilir. Axı bir həqiqət var ki, piyada onu dərk etməyə və anlamağa borcludur. Ən azından ona görə ki, Bakının yüksək sürətli prospektlərində təyin olunmayan yerdən keçmək çox təhlükəlidir. Amma buna məhəl qoyan kimdir?***

Və piyada düşünür ki, əgər o yolu keçirsə, sürücü istənilən vaxt avtomobili saxlamalı və ona şərait yaratmalıdır. Bəs görəsən, piyadaların vurulmasında sürücülər günahkardı, yoxsa onların özləri?! Bu suala təbii ki, birmənalı cavab vermək mümkün deyil. Ona görə birmənalı cavab vermək mümkün deyil ki, elə vəziyyət yaranır ki, orda sürücü məsuliyyətsizlik edir, elə də an olur ki, piyada diqqətsizlik göstərir.

Yəni hər iki halda həm piyadanın, həm də sürücünün məsuliyyəti olmalıdır.

***Məsələn, bu günlərdə Bakının küçələrinin birində xüsusi təyin olunmuş (zolaqlı ağ xətlər) yerdən yolu keçərkən piyadanı maşın vurub. Burda günahkar təbii ki, sürücüdür. Amma məsələnin başqa bir görünməyən tərəfi də var; piyada təyin olunmuş yerdən yolu keçərkən diqqətli olmalı, sürücü avtomobili saxladıqdan sonra o yolu keçməlidir. Bəzən bir sürücü saxlayır, onunla paralel hərəkət edən sürücü piyadanı görmür və nəticədə maşın da onu vurur. Bütün hallarda burda yenə məsuliyyət bayaq dediyimiz kimi, həm sürücünün, həm də piyadanın üstünə düşür.***

Ümumiyyətlə, Bakı şəhərində piyadaların ən çox vurulması halları ya təyin olunmamış yerdən keçərkən, ya da yerüstü xətlənmiş yerdən keçərkən onların vurulması halları baş verir. Ümumiyyətlə, bu hadisələrin qarşısının alınması üçün belə bir təklif irəli sürürük: yerüstü piyada keçidlərində işıqforlar quraşdırılsın? Çünki işıqforlarda bütün sürücülər qırmızı işıq yanarkən dayanır və piyadalara yol verir. Düzdür, bəzi hallarda qırmızı işıqdan keçən avtomobillər də olur. Amma bunlar çox azdır. Ona görə də yerüstü təyin olunmuş yerlərdə isə heç də bütün avtomobillər dayanıb piyadalar yol vermir və üstəlik də onunla paralel hərəkət edən bəzi sürücülər piyadanı görmür.

### Ancaq işıqforun olması

bizim düşüncəmizlə həmin məsələləri həll edə bilər. Piyadalarla bağlı Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov da öz narahatlığını bildirdi. O dedi ki, Bakı şəhərində yol polisi davamlı olaraq piyadaların təhlükəsizliyi ilə bağlı tədbirlər həyata keçirir. Elə gün, elə həftə olmur ki, əməkdaşlarımız xidməti vəzifələrini yerinə yetirərkən piyadalarla bağlı qanun pozuntusu ilə üzləşməsinlər. Təsadüfi deyil ki, minlərlə piyadanın qanunu pozması qeydə alınıb və onlar inzibati qaydada 20 manat cərimə ediliblər.

### Söhbət inzibati məsuliyyətdən getmir

***Söhbət piyadların təhlükəsizliyindən gedir. Kimsə o 20 manatı nə vaxtsa ödəyəcək, buna şübhəmiz yoxdu. Amma piyadanın günahı üzündən onun vurulması sonda bir ailənin göz yaşı deməkdir. Kimsə tələsdiyini, xəstə olduğunu bəhanə gətirərək avtomobillərin intensiv hərəkət etdiyi yoldan keçməyə can atır. Yenə deyirəm, elə hava şəraiti olur ki, sürücü piyadanı ya görmür, ya da görəndə artıq gec olur. Gərək sürücülər də hava şəraitinə uyğun sürət seçsinlər.***



Baş Dövlət Yol Polisi İdarəsinin İctimai Qurumlarla Əlaqələr şöbəsinin inspektoru, polis baş leytenanta Toğrul Nəsirli də piyadalarla əlaqədar ünvanladığımız sualımızı cavablandırdı. T.Nəsirli bildirdi ki, çox aktual bir mövzuya toxunmusunuz. Çünki piyadalarla bağlı baş verən qəzalarda hadisəyə səbəb olan şəxsin məsuliyyətini təhqiqatçılar və müstəntiqlər araşdırır. Görünən odur ki, respublikamızda və eləcə də Bakı şəhərində piyadavurma halları kifayət qədərdi. Təbii ki, yol polisi hərəkət iştirakçılarının və o cümlədən piyadaların maarifləndirilməsi üçün təbliğat işləri aparır, qabaqlayıcı tədbirlər görürlər. Müxtəlif televiziya kanallarında əməkdaşlarımızın apardıqları maarifləndirici söhbətlər, reklam çarxları, bukletlər onu deməyə əsas verir ki, piyadavurma hallarının qarşısının alınması üçün maksimum səviyyədə mübarizəmizi təşkil edirik. Təbii ki, hər piyadanın yanında bir yol polisi qoymaq mümkün deyil. Amma o mümkündür ki, biz tez-tez reydlər keçirir, qaydanı pozan piyadaları aşkar edir, onlarla maarifləndirici söhbətlər aparır və daha diqqətli olmalarını tövsiyə edirik. Bir daha onu qeyd etmək istəyirəm ki, elə situasiya var ki, orda sürücü məsuliyyət daşıyır, elə də an var ki, piyada diqqətli olmalıdır. Başqa sözlə demiş olsaq, piyadavurma hallarının qarşısını almaq üçün həm sürücülər, həm də piyadalar birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etməlidilər. Çünki yol hərəkəti qaydasına əməl etsən, bu cür hadisələr də baş verməz.

**Göründüyü kimi, piyadaların vurulması ilə bağlı yol polisi öz üzərinə düşən missiyanı yetərincə icra edir. Deməli, bütün hallarda hərəkətin təhlükəsizliyi və qəzaların baş verməməsi sürücülərin və piyadaların üzərinə böyük məsuliyyət qoyur. O məsuliyyət ki, hər hansı tərəfdən biri səhlənkarlıq edəndə qəza baş verir və piyadavurma halları yaranır. Bunun isə qarşısının alınmasının yeganə yolu polisin tövsiyələrinə əməl etmək, qaydaları yerinə yetirmək və hər iki tərəfin bir-birinə hörmətlə yanaşması tələb olunur.**

**Faiq QİSMƏTOĞLU**

# Adnan Menderesin eşq macəraları

**1929-cu ildə 30 yaşlı yaraşıqlı Menderes 24 yaşlı gözəl və zərif qadın olan Berin xanımla evlənir. Bu evlilikdən 3 uşaqları olur.**

Menderes 1956-ci ilin payızında opera sənətçisi Ayxan Aydan xanıma dəlicəsinə aşiq olur. Tanışlıqlarının ertəsi günü Ayxan Aydan qapısında son model bir amerikan avtomobilini görüb təəccüblənir. Bu, baş nazir Menderesin hədiyyəsi idi.

Həmin dövrdə Ankarada barmaqla sayılacaq qədər avtomobili olan adam var.

Ayxan Aydan da Menderesə aşiq olur. Amma o, evli idi. Əri musiqiçi Hasan Ferit bəy evdən uzaqlaşdırılır, 14 yaşlı oğlu İngiltərəyə göndərilir. Talehsiz uşaq Londonda avtomobil qəzasında dünyasını dəyişir.

Böyük eşq yaşayan Ayxan Aydan xanımın Menderesdən bir övladı dünyaya gəlsə də, 7-8 saat yaşadıqdan sonra tələf olur.

### UŞAQ DAVASI

***Ölən uşaq hadisəsi Yassıada məhkəmələrinə qədər gedib çıxır və "uşaq davası" adını qazanır. Ayxan Aydan xanım məhkəmədə məhkəmə heyətinin qarşısında dimdik duraraq Menderesi çox sevdiyini, onun uşağının anası olmaq istədiyini yaralı, amma qürurlu bir qadın kimi mərdi-mərdanə dilə gətirir.***



Menderes bəraət alır, amma daha sonrakı məhkəmələrdə Konstitusiyanı pozmaq və Vətənə xəyanət etmək maddələrilə edama məhkum edilir.

Ayxan Aydan, Menderesin birinci və sonuncu yasaq olunmuş eşqi deyildi. O, hər çiçəkdən bal almağı sevirdi. Bundan qabaq 1946-cı ildə Müqəddəs adlı gözəl bir gənc xanımla da eşq yaşamışdı.

Menderesin ən maraqlı eşq macərası isə 1953-cü ildə İstanbulda baş tutur.

İstanbul Təhlükəsislik idarəsinin müdir müavini Fərid Avni Sözən başqa şəhərə təyin olunurş Həyat yoldaşı yazıçı Suzan Özən bu təyinin qarşısını almaq üçün Menderesi ziyarət edir və ondan bu barədə xahiş edir.

Menderes Suzan Özənə də aşiq olur. Gənc qadının ərinin təyinini dayandırır, rütbəsini qaldırıb onu Təhlükəsizlik İdarəsinin müdiri edir.

Suzan Sözən sevgi romanları yazan, güclü, qüvvətli kişiləri sevən, romantic və ehtiraslı bir qadın idi.

Qısa zaman içində baş nazir Menderes ilə Suzan xanımın arasında odlu-alovlu bir eşq macərası başlayır.

Taksimdəki məşhur Park Otelin ən lüks otağı Menderesin eşq yuvası idi. Burada Suzan Özən xanımla rakı içər, İstanbulun yenidən qurulması barədə söhbətləşər, Suzan xanımın əri polis müdiri Fərid Avni Sözən isə iş formasında aşağıda öz işinin başında durardı.

### ARVADINI SEVİRƏM!

Menderes daha sonra evil və uşaqlı bir qadına aşiq olur, onun da ərini təhdidlə uzaqlaşdırır. Gözləri heç kimi görməyən şorgöz baş nazir bir müddət sonra yenə evil bir qadına vurulur, qadının ərinə "mən sənin arvadını sevirəm, aramızdan çəkil!" deyir.

Menderesin eşq macəraları serial kimidir, hətta serialdan da maraqlıdı. Yassıadada mühakimə olunarkən şəxsi həyatı və sevgililərdə mövzuya çevrilir, bu qadınlara millətdən oğurladığı pulları xərclədiyi də soruşulur.

### HƏZİN SON

**Ancaq Menderes eşq Konstitusiyanı pozduğuna və Vətənə xəyanət etdiyinə görə edam cəzası alır.**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**


**Fail SOVQATOV**
**Astara rayonundakı Motlayataq tam orta məktəbinin ədəbiyyat müəllimi**


# NİZAMİ GƏNCƏVİ ƏDƏBİ İRSİNİN ORTA MƏKTƏBDƏ TƏDRİSİ VƏ TƏBLİĞİ



**Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev ədiblərimizin, incəsənət xadimlərinin bəşəri məzmuna, dərin bədii-estetik təsirə malik əsərlərinin tədqiqi və təbliğinə, dünya arenasında öyrənilməsinə həmişə böyük diqqət yetirmiş, əhəmiyyətli sərəncamlar imzalamışdır.**

2021-ci ilin Nizami Gəncəvi ili elan edilməsi də bu diqqət və qayğının parlaq nümunəsidir. Nizami Gəncəvinin 880 illik yubileyi təkcə Azərbaycanda deyil, bütün dünyada qeyd edilməkdədir.

Nizaminin bədii-estetik idealları, dərin xəlqiliyi, yüksək bəşəriliyi, əməyə, əmək adamına sonsuz məhəbbətlə dolu poemaları bu gün də müasirdir, günümüzlə tam səsləşir, əhəmiyyəti hər gün artır. Şairin irsi dünya ədəbiyyatında mənəvi-əxlaqi dəyərlərə görə ən yüksək yerdədir.

Nizami ədəbi irsinin öyrənilməsi və təbliğinin mühüm mərhələsi orta məktəbdən başlayır. Orta məktəb dərsliklərinə Nizaminin "Sirlər xəzinsi"ndəki hekayələrdən bir neçəsi, "İskəndərnamə" poeması daxil edilmişdir. Müəllim dərsliklərə daxil edilmiş əsərlər üzərində işi elə ustalıqla təşkil etməlidir ki, şagirdlərdə şairin ədəbi irsini dərindən öyrənməyə güclü meyil və maraq oyansın.

Nizami poeziyası elə qüvvətli tərbiyəvi məzmuna malikdir ki, onu duyan hər kəs bu təsir altına düşməyə bilmir. Bununla bağlı şagirdlərə aşağıdakı nümunləri təqdim etmək olar:

*Yaxşılıq etməsən əgər insana,*
*Böyülük şərəfi verilməz sana.*
***
*Quyuya salsanda yaxşılığı bil,*
*Yenə qayıdacaq o itən deyil.*
***
*Əgər istər isən haqdan inayət,*
*Pislik eləməyi kökündən tərk et.*

Şagirdlərə, Nizaminin əsərlərini ilk növbədə tədris olunan əsərləri oxumaq, oradakı dərin mənəvi-əxlaqi dəyərləri insan mənəviyyatı ilə bağlı məziyyətləri, atalar sözləri və məsəlləri, canlı xalq dilinə xas obrazlı kəlamları, aforizimləşən misraları seçmək, öyrənmək və onlardan faydalanmaq tapşırılır. Məsələn:

***Eşitməmisənmi bu məşhur sözü:***
***"Quyu qazan adam düşəcək özü".***
***
***Dünyanın işini yaxşı düşün sən,***
***Nə əksən onu da sən biçəcəksən.***
***
***Kamil bir palançı olsa da insan,***
***Yaxşıdır yarımçıq papaqçılıqdan.***
***
***Sözündə su kimi ləafəti var,***
***Hər sözü az demək daha xoş olar.***

Dərs prosesində, sinifdənxaric oxu dərslərində Nizami lirikasına səyahət etmək də çox vacibdir. Çünki mənəvi azadlıq, xöşbəxt həyat şairin ən böyük idealıdır. İnsanı sevmək, onu xöşbəxt görmək, onun zahiri və mənəvi gözəlliyi, sədaqət, ülvi məhəbbət və s. kimi keyfiyyətlər şagirdlərə aşılanmalıdır.

Ev tapşırığı kimi, şagirdlərə aşağıdakı mövzularda inşa və esselər təqdim edilməlidir:

***1."Nizami insanları necə görmək istəyir?"***
***2."Siz xeyirxahlığı nədə görürsünüz?"***
***3."Sizcə, dövlət başçısı xalq tərədindən nə vaxt sevilir?"və s.***

Bəli, Azərbaycan dahilər məskənidir. Nizamisi, Xətayisi, Füzulisi və yüzlərlə, minlərlə bu kimi dahiləri, görkəmli şəxsiyyətləri olan xöşbəxt ölkənin vətəndaşları, qəhrəman, mübariz vətənpərvər, zəhmətsevən yüksək ideallar carcısı olan oğul və qızlarımız mənfur düşmənə kimliyimizi bir daha sübut etdi, qələbə sevincini bizə bəxş etdilər. Bizimdə amalımız şagirdlərimizi bu ruhda tərbiyə etməkdir.

# Yaponiya təkidlə sülh istəyir

**Rusiya isə Kuril adalarını qaytarmaq fikirində deyil**

Yaponiya Rusiya ilə ərazi məsələsi ilə bağlı razılaşma əldə etməkdə israrlıdır. Nazirlər kabinetinin baş katibi Kansubu Kato : " Rusiya Konstitusiyasında ərazilərin toxunulmazlığı ilə bağlı düzəlişlərin qəbul edilməsinə baxmayaraq, hesab edirəm ki, hökumət qətiyyətlə bizim əsas kursumuza uyğun olaraq ərazi məsələsinin həllinə və sülh müqaviləsinin bağlanmasına nail olmalıdır"- deyə Tokioda keçirdiyi brifinqdə bəyan edib.



Baş katib xatırladıb ki, ötən ilin sentyabr ayında Rusiya Federasiyası Konstitusiyasında dəyişikliklər qəbul edildikdən sonra, keçmiş baş nazir Sindzo Abe, prezident Putinlə telefon danışıqları zanmanı 1956-cı ildə birgə qəbul edilmiş deklarasiyaya uyğun olaraq sülh danışıqlarına başlanması məsələsinin sürətlənməsinə Yaponiyanın hazır olduğunu bildirib.

Bu günlərdə Yaponiya xarici işlər naziri Tosimisu Moteqi bəyan edib ki, pandemiyadan sonra Tokio Moskva ilə Şimali Kurilin birgə təsərüffat məqsədi ilə istifadə edilməsi layihəsinin mümkünlüyünü müzakirə etməyə razıdır.

Xatırladırıq ki, İkinci Dünya müharibəsindən sonra uzun illərdi ki, Kuril adaları ilə bağlı mübahisəli məsələlərin həll edilməməsinə görə, Rusiya ilə Yaponiya arasında sülh müqaviləsi bağlanmır. Tokio iddia edir ki, Şimali Kurilin Kunaşir, Şikotan, İturup və Xabomai adaları 1855-ci il ikitərəfli Traktatına əsasən Yaponiyanın ərazisi sayılır.

Rusiya isə təkid edir ki, müharibənin nəticələrinə görə adı çəkilən adalar SSRİ-nin tərkibinə qatılıb və Rusiyanın bu adalar üzərində suverenliyi mübahisə mövzusu ola bilməz. 1956-cı ildə SSRİ ilə Yaponiya arasında bağlanan birgə deklorasiyaya əsasən Moskva iki dövlət arasında sülh müqaviləsi bağlanandan sonra, Xabomai və Şikotan adalarını Yaponiyaya verə bilər. Lakin uzun illər ərzində sülh müqaviləsinin bağlanması ilə bağlı danışıqlar nəticəsiz qalıb. Rusiya hakimiyyəti dəfələrlə bəyan edib ki, Yaponiya İkinci Dünya müharibəsinin nəticələrini, o cümlədən Rusiyanın Şimali Kuril adaları üzərində suverenliyini tanımalıdı.

**Görünən odur ki, bu mübahisənin sonu görünmür və Rusiya heç bir vaxt Yaponiya ilə sülh bağlamaq fikirində deyil.**

**Rüstəm Hacıyev**

# Dünya ərazisinin təxminən yarısına insan əli toxunmayıb

**ABŞ-ın Milli Coğrafiya Cəmiyyəti və Kaliforniya Universiteti tərəfindən aparılan araşdırmanın nəticələrinə görə, torpaqların təxminən yarısına insan əli toxunmayıb.**

"Science Daily" xəbər verir ki, tədqiqatların nəticələri "Global Change Biology" jurnalında yayımlanıb.

Araşdırmazamanı təbii torpaqların antropogen torpaqlara çevrilməsini aşkar edən dörd qlobal xəritə müqayisə edilib.

İnsanın təsirinə məruz qalan torpaqlara, tarla və təsərrüfat əraziləri, eləcə də şəhərlər və mədən əraziləri daxil edilib.

"İnsanların torpaq istifadəsi dünyanın təbii mühiti, xüsusən də mülayim və daha çox yaşanan ərazilərdə getdikcə ciddi təhlükə yaratsa da, torpaqların yarısı, demək olar ki, intensiv istifadə olmayan məkanlarda yerləşir", - deyətədqiqat qrupunun



üzvü, coğrafiya üzrə professor Erl Ellis bildirib.

Topraqların təxminən 15 faizi və okeanların 10 faizi hazırda müəyyən formada qorunur. Digər tərəfdən, bəzi ekoloji təşkilatlar hökumətləri torpağınvə okeanların qorunan hissəsini 2050-ci ilə qədər 50 faiz artırmağa çağırır.

**Eminquey**

# ŞƏHİD BABAYEV CƏSARƏT

**Mən çox sevinirəm ki ,o mərmi mənim yanıma düşdü əsgərlərimin yanına düşmədi.**

**Yoxsa çox pis olardım əsgərlərimdən çox sayda şəhid verərdim.Yaxşı ki,özüm və köməkçim yaralandıq .**

Babayev Cəsarət İsrafil oğlu 1976 cı ildə Sabirabad rayonu Qaratoğan kəndində anadan olub. 1994-cü ildən hərbi xidmətdədir .1994 cü ildə Bakı ali birləşmiş komandirlər məktəbinə daxil olub. Bu günə kimi Vətənə şərəflə xidmət edir. Ailəlidir. Həyat yoldaşı Arzu xanım evdar qadındır.

Bu ailənin iki övladı var. Bir qız bir oğlan. Qızı Həbibə xanım Xarici Dillər Unvesitetində üçüncü kurs tələbəsidir, oğlu İsmayıl isə 10-cu sinifdə oxuyur, onunda hərbiçi olmağa çox böyuk həvəsi var. Cəsarət müəllim oğlunun bu istəyindən cox məmnundur. Hətta bu il yay tətilində Goranboy rayonunda yerləşən Ballıqayada N saylı hərbi hissəyə aparmış, orada hərbinin bəzi sirrlərini və silah texnikasından necə istifadə etməyi öyrədib. Bu səbəbdən İsmayil yaşının az olmasına baxmayaraq torpaqlarımızın Qarabağın azadlığı uğrunda döyüş başlanan gündən döyüş meydanında düşmənlə vuruşmaq üçün çox can atıb. Əlbətdə belə də olmalıdır.

### Babalar demişkən ot öz kökü üstə bitər

***Cəsarət müəllimin atası İsrafil Həbibi haqq dünayasına qovuşub. Anası Həbibə xanım Heybət qızı yaşayır. Cəsarət müəllim hal-hazırda N saylı hərbi hissədə tabur komandiri kimi xidməti vəzifədədir.***

Polkovnik-leytenant Babayev Cəsarət İsrafil oğlunun Müzəffər ordunun yaranmasında zəhməti az deyil. Və bu zəhmət də daim mükafatlandırılmışdır.

Xidmət dövründə verilən mükafatlar: Xeyli sayda tərifnamələr və Müdafiə Nazirliyi tərəfindən verilən qiymətli saat.

***3 Qüsursuz xidmətə görə medalı - 26.06.2008***

***Silahli Qüvvələrin 90 illiyi medalı - 19.07.2008***

***2 Qüsursuz xidmət görə medalı - 26.06.2010***

***Silahli Qüvvələrin 95 illiyi medalı - 24.06.2013***

***Qüsursuz xidmət görə medalı - 26.06.2016***

***Silahli Qüvvələrin 100 illiyi medalı - 26.06.2018***

***Azərbaycan Respublikası Prezidentinin "Cəsur döyüşçü" medalı - 18.12.2020***

Cənab Polkovnik Leytenantın ordudakı xidmətindən və keçdiyi döyüş yolundan çətində olsa az çox topladığım məlumatı komandirin etirazına baxmayaraq qələmə aldım və qürürla oxuculara çatdırıram.

Cənab Polkovnik Leytenant Sizin doyüş yolunuz hansı tarixi gündən başladı?



### Mənim döyüş yolum

26 Sentyabr 2020-ci ildə başladı. Həmən gün mən taburumla birlikdə düşmənlə üzbə-üz mövqedə yerləşdik. Goranboy rayonu Çənlibel postundan Sentyabr ayının 27-si 2020-ci ildə səhər saat 8:00 radələrində döyüş başladı. Həmin saatdan sora demək olarki hər gün dəhşətli döyüşlər gedirdi. Mənim taburumun tapşırığı, müdafiədə olmaq və hücum edən bölmələr üçün əlverişli şərait yaratmaq idi. Hər gün düşmən mövqelərinə kiçik və iri çaplı silahlardan atəş açaraq düşmənin mövqelərini zəiflədirdik. Onlarda toplardan,minaatanlarda, iriçaplı silahlardan atəş açırdılar. 6 Oktyabrda saat 18:00 radələrində düşmən yenidən minaatanlardan atəş açmağa başladı həmən vaxt mən əsgərləri sığınacağa göndərdim. Özüm isə rabitəçi və tağım komandiri ilə birlikdə Çənlibel postunda səngərdə müşahidə aparırdıq. Bu vaxt atılan mərmilərdən biri bizim önümüzə düşdü: Təxminən üç beş dəqiqə özümdə olmadım. Özümə gəldikdə istədim ayağa qalxım dura bilmədim, bildim ki ayaqlarımdan yaralanmışam. Yerdə uzanıqlı vəziyyətdə arxaya baxdım və əsgəri səslədim, ki necəsən?, bu zaman rabitəçimin başından qan axdığını gördüm, yaxınlaşıb baxdıqda artıq nəfəs almırdı. Böyük təəssüf hissi ilə qeyd edirəm rabitəçim İslamlı Ruhid Umud oğlu bu döyüşdə qəhrəmancasına şəhid oldu. Cox gözəl insan idi. Həm hərbiçi həm ailə başçısı kimi eyni zamanda da savadlı kadrlardandı. Bütün şəhidlərmizin ruhu şad olsun. Ailələrinə səbirli olmağı diləyirəm.

***Tağım komandiri isə qolundan yaralanmışdi. Mən təcili rabitəni şəhid olan əsgərin çiynindən çıxarıb sürünə-sürünə kənara çəkilərək mərkəzdən həkimlərin gəlməsini istədim.***

### Sizi hansı tibb məntəqəsinə apardılar?

Sanitar maşın gələnə kimi bizi mülkü maşınla Aşağı Ağcakənd xəstəxanasına apardılar. Yolda çox qan itirməmək üçün sürücü özünün bel toqqası ilə ayağımdakı qan axmanın qarşısını aldı. Bizə həmin xəstəxanada ilk tibbi yardım göstərdilər. Göndərdilər Naftalan xəstəxanasına, ordada baxış keçirdikdən sonra gecəylə Gəncə Beynəlxalq Xəstəxanasına apardılar. Oktyabr ayının 7-də ayağımı əməliyyat etdilər. Təxminən 12 gündən sonra məni Bakıya Travmatologiya instituna göndərdilər. İki dəfə ordada yoxlamadan sora məni Buzovna reablitasiya mərkəzinə göndərdilər. Burdada iki hətəlik müalicədən sonra Hərbi hospitala həkim komissiyasına göndərdilər, lakin sol ayağımın pəncəsi işləmədiyi üçün məni yenidən Mərdəkan Reablitasiya mərkəzinə göndərdilər. Burada da iki həftə qaldıqdan sonra yenidən yenə Hərbi Hospitala müayinəyə göndərdilər. Lakin ayağımda irəliləyişin azda olsa olmadığını gördükdə Noyabr ayının 30-da ATU TCK-na əməliyyat olmaq üçün göndərdilər. 4 dekabr 2020-ci ildə təkrar əməliyyat olundum. Müalicəm hal-hazırda davam edir.

***Ümumiyyətlə bu müharibənin nə zaman başlayacağını səbrsizliklə gözləyirdik və bunun üçündə biz güclü hazırlaşmışdıq. Hər zaman Ali baş komandanın əmrini səbrsizliklə gözləyirdik. Axırki həmin o şərəfli gün bizə qismət oldu. Və biz Ali Baş Komandan İlham Əliyevin bir yumruğu altında birləşərək düşmənlərimizi məhv etdik.***

10 Noyabr 2020-ci il Moskva vaxtı ilə saat 00.00 etibarən hərbi əməliyyatların tam dayandırılması elan olunanda, hamı kimi məndə qələbəmizə çox sevindim. Bu zəfər Azərbaycan Respublikasının Prezdenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Müzəffər ordusunun qüdrətini, gücünü dünyaya göstərdi.

Bu müharibədə təkcə Azərbaycan yox, bütün Türk dünyası qalib gəldi.

*Cəsarətlə*
*Bu zəfərdə payın var,*
*Cənab Polkovnik-Leytenant !*
*Sızlamasın qoy yaran,*
*Cənab Polkovnik-leytenant !*

*Döyüşdün cəsarətlə,*
*Qoymadın bir əsgərə*
*dəysin düşmən gülləsi*
*Cənab Polkovnik-leytenant !*

*Gecə gündüz bilmədən,*
*Etdin Vətənə xidmət*
*Mərdilk, düzlük təməlin*
*Cənab Polkovnik-leytenant !*
*Cənab Polkovnik-leytenant !*

**SARA GÖYÇƏLİ,**
**"Qızıl Qələm" və "Xan qızı Natəvan" media mükafatları laureatı və Azərbaycan Jurnalistlər birliyinin üzvü**

# "Öz tərcümeyi -halını ingilis dilinə tərcümə edə bilməyənlər Tərcümə Mərkəzində redaktor işləyir"

***Müsahibimiz yazar-tərcüməçi Sevil Gültəndir.***

**-26-dan çox kitabı dilimizə çevirmisiniz. Kifayət qədər sanballı saydır.**

-Bu rəqəmi yəqin ki, vikipediyadan götürmüsünüz. "Qanun" nəşriyyatı üçün tərcümə etdiyim kitabların siyahısıdır. Son bir neçə ildə tərcümə etdiyim kitabların adını vikipediyada qeyd etməmişəm." Qanun" nəşriyyatının sifarişi ilə 30-dan çox kitab tərcümə etmişəm. Onların bir neçəsi hələ çap olunmayıb. " TEAS-PRESS" nəşriyyatında isə tərcümə etdiyim 17 kitab çap olunub. Azərbaycan dilindən ingilis dilinə tərcümə etdiyim kitabların sayı 60-dan çoxdur. " Kaspi" qəzetində tərcümə etdiyim 150-dən çox hekayə çap olunub. Bu hekayələri kitab halında çap etdirəsi olsam hər biri 200 səhifə olmaqla ən azı 30 kitab olar.

**-Eyni zamanda bizim müəllifləri ingilis dilinə tərcümə etmisiniz. O çevrilən əsərlərin aqibəti necə olur?**

-Bəli, son 20 ildə çoxlu sayda əsərləri ingilis dilinə tərcümə etmişəm. O əsərləri çap etdirmək mənim işim deyil. Mən tərcümə edirəm, müəlliflər harda istəsə çap etdirə bilər. Yunus Oğuzun " Nadir şah" romanı Londonda çap olunub. Rəhmətlik Rafiq Tağının hekayələri də Londonda çap olunub. Amerikada " Azərbaycan yazıçılarının antologiyası" və " Azərbaycan qadın yazıçıların antologiyası" çap edilib. Həmin antologiyaların hər birində mənim tərcümə etdiyim 10-dan çox hekayə də yer alıb. Qəşəm Nəcəfzadənin şeirləri mənim tərcüməmdə Hollandiyada uğur qazandı. Afaq Şıxlınn şeirləri mənim tərcüməm vasitəsilə yapon dilinə tərcümə olunub və Yaponiyada nəşr olunub.

### Səhvim ondadır ki, müəlliflərlə müqavilə bağlamıram

**-Bir dəfə facebook-da Varislə bağlı bir statusunuzu oxudum. Mükafat aldığı müsabiqəyə təqdim edilən əsərin sizin tərcüməniz olduğunu yazmışdınız. Sizə qarşı haqsızlıq etdiyini qeyd etmişdiniz. Məsələ nə idi?**

-Mən Varisin 3 kitabını ingilis dilinə tərcümə etmişəm. Səhvim ondadır ki, müəlliflərlə müqavilə bağlamıram. Elə bilirəm onlara desəm ki, gəl müqavilə bağlayaq, onları təhqir etmiş olaram. Problem də bundan yaranır. Varisin " Metamorfoza" kitabı Londonda hansısa müsabiqədə qısa siyahıya düşmüşdü. O kitabı ingilis dilinə mən tərcümə etmişəm, Marta Lavri adlı amerikalı qız ( O vaxlar " Xəzər" universitetində işləyirdi) redaktə edib. Müsabiqə haqda xəbərdə o da qeyd edilmişdi ki, həmin müsabiqə rusdilli müəlliflər üçündür. Google-da həmin kitabı axtarıb tapdım. Kitabın ingilis dilinə rus dilindən tərcümə edildiyi yazılmışdı. Yəni Varis o müsabiqəyə rusdilli müəllif kimi qatılmışdı. Hamımız bilirik ki, Varis əsərlərini rus dilində yazmır. Guya o əsərini rusca yazıb , mən isə həmin əsəri rus dilindən ingilis dilinə tərcümə etmişəm. Bu, mənim adımdan istifadə etmək deyil, bəs nədir? Varisdən qabaq Qəşəmlə bağlı da belə problem olmuşdu.O Hollandiyadan qayıdanda mənə bir kitab verdi. Mənim tərcümələrim idi, nöqtəsinə, vergülünə qədər. Hətta bir sözdə korrektə səhvi etmişdim, kitabda da həmin səhv getmişdi. Kitabın korrektoru kimi Qəşəmin öz adı yazılmışdı. Dedi ki, guya səhv olub. Tərcüməçi kimi isə başqa ad idi. Qəşəm sübut etməyə çalışdı ki, o tərcümələr mənim tərcüməm deyil.

### Sutkada 20 saat işləyirdim, amma...

**-Eyni zamanda ümumiyyətlə narazılıq dolu statuslarınızı görürük. Sevil Gültənin razı qalması üçün nə olmalıdır?**

-Bəzi insanlar nədənsə narazı qalanda fikrini gizli saxlayır. Mən isə ürəyimdə söz saxlamıram. Kimə lazımdırsa sözümü ona ünvanlayıram. Hələ beşinci kursda oxuyanda rəhmətlik İsmixan Rəhimov mənim tərcüməmi məndən xəbərsiz " Dünya" almanaxında çap etdirmişdi. Yəni hələ tələbə vaxtlarımdan, 1978-ci ildən tərcümə ilə məşğulam. Amma bir neçə il qabaq universitet bitirənlər Tərcümə mərkəzində " ekspert", "redaktor" işləyir, mənə isə o mərkəzdə iş tapılmır. İki il qabaq Vilayət Hacıyevin qəbulunda oldum, xahiş etdim ki, heç olmasa mənə " korrektor" ştatı versiunlər, maaş alım. Dedi ki, mərkəzdə " tərcüməçi" ştatı yoxdur" , "ekspert" ştatı var, korrektor ştatı isə boş deyil. Maraqlansaq görərik ki, Tərcümə mərkəzində" ekspert" işləyənlərin tərcüməçi kimi stajı mənim stajımdan ən azı 3 dəfə azdır. Bir şairə var. Neçə il qabaq bir nəfər onun şeirlərini verdi ki, tərcümə edim. 5-10 şeir idi. Təxminən bir səhifəlik tərcümeyi- halını da tərcümə etdim. O gün həmin qızın facebook-səhifəsi qarşıma çıxdı. Sən demə, bu qız da Tərcümə mərkəzində "redaktor" işləyirmiş. Öz tərcüməyi -halını ingilis dilinə tərcümə edə bilməyənlər Tərcümə mərkəzində redaktor işləyir, mənə isə orda korrektor ştatı da tapılmır. Ora dövlət təşkilatdır, niyə işçilər müsabiqə yolu ilə qəbul edilmir?



Narazı olmağımın bir səbəbi mənim zəhmətimə düzgün dəyər verilməməsidir. " Erməni əsirliyində" kitabnı Əsir və İtkin düşmüş vətəndaşlarla dövlət komitəsinin sifarişi ilə tərcümə etmişəm. Bir ay vaxt vermişdilər tərcümə üçün. 360 səhifəlik kitab idi. Nəinki tərcümə baxımdan, həm də korrektə baxımdan çətin idi. Yer adları, illər və sair. 25 günə tərcümə etdim o kitabı, eyni zamanda azərbaycan dilindəki mətni də korrektə etdim. Sutkada 20 saat işləyirdim. Kitab çap olundu, kitabın təqdimatında deputatlar danışdı, qəzet redaktorları danışdı, amma mənə söz verilmədi...Narazı qalmalı deyiləm?

Yaxud bir neçə il bundan qabaq Anar müəllimin təşəbbüsü ilə prezident bir neçə AYB üzvünə ev bağışladı. Bir qadın da vardı ev alanlar siyahısında. O qadının ədəbiyyatımız üçün hans xidmət göstərdiyi şəxsən mənə məlum deyil. Mən nə qazanmışamsa öz zəhmətimlə əldə etmişəm. Hazırın naziri deyiləm. Amma zəhmət çəkmədən dövlətdən mükafat, ev alanları görəndə narazı qalıram. Nə vaxt zəhmət çəkənləri düzgün dəyərləndirsələr onda razı qalaram.

**-Kimi tərcümə etməyiniz önəmlidir, ya sifariş? Bununla bağlı kriteriyalarınız varmı?**

-Çox sadə bir arzum var. Sifarişlə heç nə tərcümə etməyim. Bəzən azərbaycan dilindən ingilis dilinə elə əsərlər tərcümə etmişəm ki, o əsərlərə adımın tərcüməçi kimi yazılmağına utanmışam. Mənasız söz yığını. Kaş imkanım olaydı yalnız ürəyimcə olan əsərləri tərcümə edəydim.

**-Özünüz də yaradıcı adamsınız. Amma sizi daha çox tərcüməçi kimi təqdim edirlər. Özünüz də belə təqdim olunmağa meyillisiniz. Səbəb nədir? Yaradıcılığınıza əminsizlik, yoxsa tərcümənizə əminlik?**

-3 şeir kitabım çap olunub. Çap olunmayan iki kitablıq şeirlərim var. Bir esse kitabım var. Mən tərcümçi kimi təqdim olunmağa meyilli deyiləm. Məni belə təqdim edənlərin çoxu mənim öz yaradıcılığımdan xəbərsiz olanlardır. Öz yazılarımı təbliğ etməyə vaxtım yoxdur. Mənim şeirlərim, esselərim zəif deyil. Nə yazmışamsa ürəkdən yazmışam. O mənada öz yazılarımdan da əminəm, tərcümələrimdən də.

### Kimin pulu çoxdursa zəif əsərini tərcümə etdirir, lazım gəlsə xaricdə nəşr etdirir

**-Tərcümələr keyfiyyətlidirsə niyə xarici ölkələrdə əsas təqdimatlarda, mükafatlandırmalarda, çoxtirajlı kitab satışlarında Azərbaycan müəlliflərini görmürük?**

-Yuxarıda da dedim, mənim işim tərcümədir, əsərlərin nəşri mənlik deyil. Əlisa Nicatın hekayələrini tərcümə etmişəm. Heyf ki, çap olunmadı. Onun hekayələri yaxşı təbliğ olunsa bütün dünyada uğur qazanar. Yaxud elə cavan şairlərimz var ki, onların şeirləri çox güclüdür. Sadəcə bu sahədə təbliğat zəifdir.

**-Tərcüməçilərin heçmi yanlışı yoxdu? Ya uyğun olmayan adamları hansısa səbəbdən tərcümə edib təqdim etmək, ya da keyfiyyətsiz tərcümə eləmək...**

-Mən sifariş verilən əsəri tərcümə edirəm. Çörəyim, daha doğrusu ev pulum tərcümədən çıxır. Bəzən ürəyimcə olmayan bir neçə əsəri tərcümə etməkdən imtina etmişəm. O ki qaldı tərcümənin keyfiyyətinə, özüm haqda bir fikrim var: ola bilsin güclü tərcüməçi deyiləm, amma vicdanlı insanam. Normal halda Tərcümə mərkəzi tərcümə edilən bütün əsərlərə nəzarət etməlidir. Yoxsa kimin pulu çoxdursa zəif əsərini tərcümə etdirir, lazım gəlsə xaricdə nəşr etdirir. Bu işlərə bizdə nəzarət demək olar yoxdur.

**-Hazırda hansı əsərlərin tərcüməsi ilə məşğulsunuz?**

-Hazırda " Qanun" nəşriyyatının sifarilşi ilə Jojo Moyesin " The Giver of Stars"( kitabı hələ bitirmımişəm, ona görə kitabın adını hələ tərcümə etməmişəm) kitabını tərcümə edirəm. Çətin kitabdır tərcümə baxımdan. Dinə aid yerlər var. Belə mətnləri sevmirəm. Bu müəllifin bir neçə kitabını artıq tərcümə etmişəm. Bu kitab o biri kitablarla müqayisədə daha çətindir.

**-Tərcümənizə verilən qonorar sizi qane edirmi? Bu necə tənzimlənir sizin sahənizdə?**

-Nəşriyyat qonorarı işarə sayına uyğun verir. Təxminən bir səhifəlik mətn 5 manata. İngiliscədən tərcümə etdiyim kitablar üçün bu, normaldır. Məni qane edir.

Əgər qonorar birdəfəlik verilsə yaxşı olar. Heyf ki, bu, mümkün deyil. Nəşriyyat nə edirsə öz gücünə edir. Son bir il ərzində " Qanun" nəşriyyatı çox çətinlik yaşayıb. Kitab mağazalarının çoxusu ticarət mərkəzlərində yerləşir. Ticarət mərkəzləri isə bir ildir ki, bağlıdır. Çətinliklərə baxmayaraq nəşriyyat hər ay qonorarımı verib. Azərbaycancadan ingilis dilinə də demək olar eyni qiymətə tərcümə edirəm. Halbuki azrbaycancadan ingilisə tərcümə etmək ikiqat çətindir.

**Söhbətləşdi:**
**Emin Piri**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

***Qazi atanın Şəhid oğlu...***



**XTQ MAXE Abdullazadə Tağı İlham oğlu 05.05.1992-ci ildə Naxçıvan MR Sədərək rayonunda anadan olub. Vətən müharibəsinə Naxçıvandan göndərilən xüsusi təyinatlı dəstəylə birlikdə qatılan Tağı döyüşlərdə igidlik və mərdlik göstərərək boğazından aldığı qəlpə yarası nəticəsində qəhrəmancasına Şəhid olub. Tağı döyüşlər zamanı Yaralı, gözlərini itirmiş olan komandirini 10 km-dən çox çiynində gətirib. Bu barədə komandiri şəhidin 40 mərasimində qəbri üstündə danışıb.**

**Qeyd edək ki, Şəhidimizin atası İlham dayıda Sədərək döyüşlərində rəşadətlə döyüşərə qazi olub. Şəhidimiz ailəli idi. Yusif adlı oğlu Vətənə əmanət qalıb.**

**Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.**

***Zəngilan istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub***



**Cəmiyev Aşur Bəybala oğlu 18 iyun 1989-cu ildə Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Külüs kəndində adandan olub.**

**2020-ci il 27 sentyabr tarixindən başlayan Vətən müharibəsinə ilk gündən cəlb olunan Aşur Bəybala oğlu Füzuli və Cəbrayıl istiqamətində həyata keçirilən uğurlu hərbi əməliyyatlarda yaxından iştirak edərək 21 oktyabr 2020-ciil tarixində Zəngilan rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.Ailəli idi, 3 övladı yadigar qalıb.Naxçıvan şəhərində dəfn olunub.**

***Qanı ilə tarix yazan daha bir hərbçimizin nəşi torpağa tapşırıldı***



**Vətən müharibəsində işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Aslanov Bəxtiyar İlqar oğlu bu gün son mənzilə yola salınıb.**

**Müharibənin bitməsinə baxmayaraq, itkin kimi aylardır axtarışları davam edən hərbi qulluqçunun cənazəsi Murov dağın Ağbaba yüksəkliyində aşkar olunub.**

***128 gün komada qalan 24 yaşlı qazimiz bu gün dəfn olundu***



**128 gün komada qalan 24 yaşlı Vətən müharibəsi qazisi İsmayılzadə Tacəddin Vüqar oğlu bu gün torpağa tapşırılıb. Tacəddin İsmayılzadə yaşadığı Sumqayıt şəhərində Şəhidlər Xiyabanında dəfn olunub.**

**Dəfn mərasimində Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, millət vəkilləri Emin Hacıyev, Müşfiq Məmmədli, Tahir Mirkişili, şəhidin yaxınları və bir sıra ictimaiyyət nümayəndələri iştirak ediblər.**

**Xatırladaq ki, 24 yaşlı Tacəddin İsmayılzadə həm də Aprel döyüşlərinin iştirakçısı olub. İkinci Qarabağ müharibəsi başlayan zaman könüllü olaraq müraciət edərək, ön cəbhəyə getmək istədiyini bildirib. Kəşfiyyat bölüyündə xidmət edən şəhidimiz Ağdam, Xocavənd və Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 9-da Füzulidə başından ağır yaralanıb və komaya düşüb.**

**Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, İsmayılzadə Tacəddin Vüqar oğlu "Cəsur döyüşçü" medalı ilə təltif edilib.**

***Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



**İsgəndərov Şahin Ziyad oğlu 21.08.2001-ci ildə Zaqatala rayonu Qandax kəndində anadan olub.**

**O, Vətən müharibəsində 11.10.2020-ci ildə Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Şəhid Sahil Habil oğlu Hüseynov***



**Şəhid Sahil Habil oğlu Hüseynov 2001-ci il iyunun 12-də Xocavənd kəndində anadan olub. 2008-ci ildə Xocavənd kənd orta məktəbinin birinci sinfinə daxil olub, 2018-ci ildə həmin məktəbi bitirib. 2019-cu ilin ortalarında hərbi xidmətə yollanıb. Qazaxda xidmət edən Sahil orduda atıcı hərbi peşəsinə yaxından yiyələnib.**

**Tovuz döyüşlərində fəal iştirak edib. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində ilk gündən ön cəbhədə vuruşub. Füzulinin düşməndən azad edilməsində gedən döyüşlərdə yaxından iştirak edib. 2020-ci ilin noyabrının 11-də Füzuli yaxınlığında döyüşdə qəhrəmancasına həlak olan Sahil Habil oğlu Hüseynov şəhidlik zirvəsinə yüksəlib.**

# Seyran Səxavət dünyası

**Seyran Səxavət çağdaş Azərbaycan ədəbiyyatında ədəbi-bədii və ictimai- fəlsəfi fikrin formalaşmasında böyük xidmətləri olan yazıçıdır.**

Seyran Səxavət yaradıcılığı çağdaş Azərbaycan nəsrinin ən mühüm ədəbi hadisələrindən biridir. XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycan nəsrini dəbdəbədən, şüarçılıqdan, süni pafosdan, təsvir və təhkiyə bəsitliyindən uzaqlaşdırmağa nail olmuş Seyran Səxavət nəsrimizə mövzu, ideya, məzmun və forma yeniliyi ilə səciyyələnən nəfəs gətirmişdir.

### *Yazıçının yaradıcılıq dünyası*

bütövlükdə zəngin daxili aləmin, sistemli bədii təfəkkürün, dünyagörüşün güzgüsüdür və Azərbaycan nəsrində ayrıca bir mərhələ kimi qiymətləndirilməlidir. Çünki Seyran Səxavət yaradıcılığı klassik Azərbaycan nəsri ilə çağdaş nəsr arasında etibarlı mənəvi körpü rolunu oynayır.

***Seyran Səxavət çağdaş Azərbaycan bədii nəsrinin ən məhsuldar yaradıcılarındandır. Ədibin bənzərsiz fərdi üslubu, fərqli yazı tərzi, özünəməxsusluğu, orijinal istedadı, əsərlərində qaldırdığı problemlərin aktuallığı, yaradıcılığına məxsus dərin humanizm, fəlsəfilik, psixoloji dərinlik ilk qələm təcrübələrindən başlayaraq bu günə qədər geniş oxucu kütləsinin və ədəbi-elmi ictimaiyyətin diqqətini daim özünə cəlb etmişdir. Şair, nasir, publisist və dramaturq kimi geniş oxucu auditoriyası, rəğbəti və sevgisini qazanan Seyran Səxavətin çoxjanrlı və çoxşaxəli yaradıcılığını müasir ədəbi tənqid daim diqqətlə izləmişdir.***

Seyran Səxavət həyatın geniş sosial mənzərəsini deyil, onun insan mənəviyyatında doğurduğu konkret, retrospektiv cəhətlərini işıqlandırmış, nəsrin müxtəlif janrlarında mövcud cəmiyyətin tipik mövzularını, problemlərini, milli və ümumbəşəri məsələlərini, mürəkkəb insan xarakterlərini özəl boyalarla əks etdirmiş və yazıçı istedadının poetik sirlərini canlandırmışdır.

Seyran Səxavət dilimizin gözəlliyini, zənginliyini özündə ehtiva edən, xalq ruhuna yaxın, Tanrıya sevgiyə və bağlılığa, insanın özünüdərkinə, mənəvi cəhətdən kamilləşməsinə həsr olunan, ümumbəşəri ideyalara söykənən, dərin məzmunlu, düşündürücü romanların, povestlərin və hekayələrin müəllifidir. O, dünyaya özünəməxsus baxışı olan yaradıcı şəxsiyyət, Sözə həssaslıq və ehtiramla yanaşan, Haqqı-Sözü yerində və zamanında deməyi bacaran cəsarətli qələm sahibidir.

Seyran Səxavət - Xanlarov Seyran Əsgər oğlu 1946-cı ildə Füzuli rayonunun Yağlıvənd kəndində ziyalı ailəsində doğulmuşdur. Orta məktəbi həmin kənddə bitirdikdən sonra 1962-1964-cü illərdə Natəvan adına Füzuli şəhər məktəbində direktor köməkçisi vəzifəsində çalışmışdır. 1964-1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) şərqşünaslıq fakültəsində fars şöbəsində ali təhsil almış, Sovet ordusu sıralarında əsgəri xidmət zamanı SSRİ Müdafiə Nazirliyində tərcüməçi işləmişdir (1970-1972). Hərbi xidməti başa vurduqdan sonra "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında xüsusi müxbir, ədəbi işçi kimi fəaliyyət göstərmişdir. 1974-1976-cı illərdə göndərişlə İranda tərcüməçi işləmişdir. 1976-cı ildə Bakıya qayıdan yazıçı 1981-ci ilədək "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmişdir. 1981-1991-ci illərdə "Ulduz" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Yazıçı hal-hazırda Azərbaycan Yazıçılar Birliyində nəsr şöbəsində işləyir.

### *İlk bədii yazısı*

1962-ci ildə 16 yaşında ikən "İki sevgi" adlı şeiri "Qızıl Araz" qəzetində çap olunan Seyran Səxavət şeir, hekayə və publisistik yazıları ilə bugünə qədər mətbuat səhifələrində müntəzəm çıxış edir. Şair, filologiya elmləri doktoru Qasım Qasımzadə hələ tələbəlik illərində gənc Seyranın istedadını yüksək qiymətləndirmiş, "Azərbaycan gəncləri" qəzetində o illər üçün dəbdə olan "Uğur olsun" yazıb gənc şairə uğurlar arzulamışdır. Seyrana "Səxavət" təxəllüsünü də elə həmin yazısında Qasım Qasımzadə vermişdir.

***Hələ ADU-nun şərqşünaslıq fakültəsinin V kursunda oxuyarkən, 1970-cu ildə gənc şairin "Adalar" adlı ilk şeirlər kitabı çap olunur və ədəbi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. 1977-ci ildə isə şairin "Mənim planetim" adlı ikinci şeirlər kitabı işıq üzü görmüşdür. Çap olunduğu gündən həmin kitablar ədəbi tənqid və oxucular tərəfindən poeziyada yeni nəfəs, yeni söz kimi qarşılanmışdı. Seyranın 1970-ci ildə işıq üzü görən "Adalar", 1977-ci ildə nəşr olunan "Mənim planetim" kitablarında yer alan şeirlərin böyük əksəriyyətində gənc müəllif sevən qəlbinin pünhan duyğularını dilə gətirir, məhəbbətin ülviyyətindən, qüdsiyyətindən yazırdı. Sənətə şeirlə gələn, ilk qələm təcrübələrində bədii müşahidə və araşdırmasını lirikanın, rübabi duyğu və hisslərin işığında aparan gənc müəllifin yaradıcılığında poeziya xətti nə qədər uğurlu alınsa da, Seyran Səxavətin yaradıcılığının bənzərsizliyini üzə çıxaran məhz onun zəngin ədəbi ənənələrə söykənən nəsr yaradıcılığı olmuşdur.***

### *Ədibin müasiri,*

çağdaş Azərbaycan poeziyasının görkəmli simalarından olan, əsərləri ilə çağ-



daş poeziyamıza yeni ruh, yeni nəfəs, bədii-fəlsəfi obrazlar sistemi gətirən Ramiz Rövşən Seyran Səxavət haqqında müsahibələrinin birində belə deyir: "Mən tam səmimiyyətlə deyirəm ki, Seyran mənim, Sabir Rüstəmxanlının və bir çox yaradıcı dostlarımızın, yaşıdlarımızın gözünü qorxudan bir şair idi. Amma xoşbəxtlikdən o sonra şeirdən nəsrə keçdi. Bu barədə mən bir dəfə demişəm ki, Şairlərin xoşbəxtliyindən, nasirlərin bədbəxtliyindən Seyran Səxavət şeirdən nəsrə keçdi" .

***Müsahibələrinin birində yazıçıya sual verirlər: "Şeirdən nəsrə keçid sizin üçün çətin olmadı ki? O zaman Seyran Səxavət bu suala çox orijinal bir cavab vermişdi: Əgər mən inşaat mühəndisliyindən ayrılıb nəsr sahəsinə gəlmiş olsaydım, bu, əlbəttə, çətin olardı, amma indi niyə çətin olsun ki? Şeirin də, nəsrin də, dramaturgiyanın da, publisistikanın da materialı, özülü sözdür. Bu baxımdan keçidlərdə təəccüblü bir şey yoxdur. Hansı sahədə özünü tapsan da, yenə tikinti materialın - xammalın söz olacaq. Buna görə də şeirdən nəsrə keçərkən mən heç bir çətinlik hiss etmədim. Mənim üçün şeirdən nəsrə keçmək şeir yazanda bir bənddən başqa bəndə keçmək kimi bir şeydi. 1970-ci ilə qədər şeir yazmışam. Amma əslinə qalanda yaradıcılığa nəsrlə başlamışam. Çünki, şeir yazdığım zamanlarda çox yeniyetmə idim və bu yazdıqlarım yaradıcılıq deyildi. Sadəcə ədəbiyyat aləmində vurnuxurdum. VII-II sinifdə oxuyanda "İki arzu" adlı ilk şeirim rayonda "Qızıl Araz" qəzetində dərc olundu. Universitetin şərqşünaslıq fakültəsində oxuduğum illərdə də şeirlər yazırdım. V kursda kitablarım çap olundu. Yerəgöyə, fakültəyə, universitetə sığmırdım. Sonra əsgər getdim, zabit kimi Bişkekdə xidmət edir, gün ərzində əfqan və rus hərbçiləri arasında 6 saatadək sinxron tərcümə edirdim. 1973-cü ildə hərbi xidmətdən qayıdıb "Ədəbiyyat və incəsənət" qəzetində işləsəm də, heç nə yazmırdım. 1974-cü ildə İranın İsfahan şəhərinə tərcüməçi göndərdilər, 1 il sonra elə İsfahanda işlədiyim ərəfədə nəsr yazmağa başladım".***

"1975-ci ilə qədər heç nə yazmadım. Düşünürəm ki, bu müddət ərzində susmağımla da ədəbiyyata xidmət etmiş oldum. Gözəl ədəbi nümunə yarada bilmirsənsə, kənara çəkilmək də bir növ xidmətdir. Ürəyincə olmayan şeyləri yazıb çap etdirməkdənsə, susmağı bacarmaq özü də yazmaq qədər istedad istəyir".

Müsahibədən də aydın olduğu kimi, Seyran Səxavət 1975-ci ildə nəsr yaradıcılığına qədəm qoymuş, İranda tərcüməçi işləyərkən "Hamı elə bilirdi" adlı ilk hekayəsini yazmış və nəşr olunmaq üçün Bakıya göndərmişdir. Hekayə "Ədəbiyyat və incəsənət" qəzetinin Üzeyir bəy Hacıbəyliyə həsr olunmuş yubiley nömrəsində çap olunmuşdur. Ramiz Rövşən bu hekayəyə yüksək qiymət verərək Seyran Səxavəti dünya şöhrətli Amerika yazıçısı Folknerlə müqayisə etmişdir. Bu hekayə müəyyən mənada avtobioqrafik səciyyə daşıyır, müəllifin babası Bəylər kişi və onun müasirləri hekayənin əsas obrazlarıdır. Seyran Səxavətin ilk hekayələr kitabı da məhz bu hekayənin adı ilə "Hamı elə bilirdi" adlanır. Bu kitab 1979-cu ildə Bakıda çap olunmuşdur. Kitaba yazıçının "Hamı elə bilirdi", "Çayçı Rəşid", "Alça çiçəyi", "Toy havası", "Ət taxtası", "Dəyirmanın boğazında", "Parovozsürən" hekayələri və "Ağrı" povesti daxil edilmişdir. Bu əsərlər onlardakı obrazlar canlılığı və avtobioqrafik məzmunu ilə diqqəti çəkməkdədir.

### *Seyran Səxavətin əsərlərində*

***mənəvi-əxlaqi məsələlərin işıqlı mövqelərdən maraqlı həllinə və insan xarakterlərinin orijinal boyalarla təsvirinə rast gəlirik. Yazıçının əsərlərinin dili xalq danışıq dilində olduğu qədər canlı və anlaşıqlı, üslubu, sujeti, bədii quruluşu isə olduqca təbii və sadədir.***

Xalq şairi, professor Bəxtiyar Vahabzadə Seyran Səxavətin yaradıcılığı ilə bağlı "Ədəbiyyat və incəsənət" qəzetində "Oxudum, heyran oldum" adlı olduqca maraqlı bir resenziya yazmış, onun bir sıra əsərlərini təhlil süzgəcindən keçirmiş və yazıçının üslubi özünəməxsusluğu ilə bağlı maraqlı fikirlər söyləmişdir.

İlk yaradıcılıq axtarışlarının toplandığı "Hamı elə bilirdi", "Yaz oğrusu" və digər kitablar da bir daha göstərir ki, Seyran Səxavət hələ gənclik illərindən əsl vətəndaş qayğıları ilə, daxili narahatçılıqla yazır. Onun "Ət taxtası" və "Dəyirmanın boğazında" hekayələrində cəmiyyətimizdəki meşşan əhval-ruhiyyəli adamlar kəskin tənqid olunur.

***Seyran Səxavətin "Ağrı" povestində müharibə illərində Azərbaycan kəndlərindən birində yaşayan əsgər ailəsinin taleyindən bəhs edilir. Müəllif əsəri "Ağrı" adlandırsa da, əsərdə bu ağrılardan daha çox müharibə dövrü adamlarının xarakteri və münasibətləri maraq obyektinə çevrilmişdir. Bəlkə də, buna görədir ki, oxucu əsərdən müharibə dövrü kəndinin ümumi panoramını, kardinal problem və qayğılarının geniş təsvirini gözləmir.***

### *Povestdən çıxan belə bir məna*

daha çox diqqəti cəlb edir ki, həyatın törətdiyi heç bir dəhşət və ağrı nə qədər ağır olsa belə insanların qarşılıqlı məhəbbəti və qayğısının qarşısında aciz və gücsüzdür.

Qeyd edək ki, ilk qələm təcrübələri toplanmış "Hamı elə bilirdi" kitabı Seyran Səxavətin uğurlu yaradıcılıq axtarışlarının nəticəsi kimi diqqətəlayiqdir və bu axtarışlar gənc yazıçını nəsrin böyük dünyasına gedən yola qovuşdurur.

Seyran Səxavətin hekayələrinin başlıca mövzusu insanın mənəvi-əxlaqi kamilləşməsi, ruhən təmizlənməsi, günahlarını və səhvlərini dərindən dərk edib durulması, saflaşması prosesi ilə bağlıdır. Onun əsərləri dil, üslub, sənətkarlıq, həm də poetik prinsip baxımından orijinallığı ilə seçilir. Seyran Səxavətin əsərlərini təhlil edərkən aydın hiss olunur ki, yazıçının möv-qeyi Mirzə Ələkbər Sabirlə yaxından səsləşir. Böyük Sabir kimi Seyran Səxavət də məsələlərə münasibət bildirməkdə sərt və amansızdır. "Paravozsürən", "Dəyir-manın boğazında" hekayələrində yazıçı Zülfəli, Bomba Saleh kimi obrazları danış-dıraraq onların iç üzünü açır və tipi öz dili ilə ifşa edir.

Böyük Sabirlə başlayan tipi öz dili ilə ifşa etmək ənənəsini Seyran Səxavət öz əsərlərində uğurla davam etdirir. Sabir tərəqqiyə, milli oyanışa nail olmağın yolunu elmə və təhsilə yiyələnməkdə, özünüdərketmədə, dünya işlərindən baş çıxarmaqda görür. Buna görədir ki, M.Ə.Sabirin yaradıcılığında məktəbə, maarifə, elmə, təhsilə köhnəpərəst münasibətin sərt tənqidi mühüm yer tutur:

"Bilməm nə görübdür bizim oğlan oxumaqda", "Neçin məktəbə rəğbətim olmayır", "Uşaqdır", "Oxutmuram, əl çəkin", "Müəllimlər syezdi" və s. kimi satiralarında elmsizliyin, savadsızlığın bəlaları, məktəbin və təhsilin düşmənlərinin ifşası, yalnız elm öyrənməklə, təhsil almaqla özünüdərkin isbatı kimi öz dövrü üçün aktual olan məsələlərdən söz açmışdır.

**Əslində, həmin məsələlər sadəcə Sabirin dövrü üçün aktual deyil. Təəssüflər olsun ki, üstündən uzun illər keçməsinə baxmayaraq bu elmsiz mühit, cəhalət müasir dövrümüzdə hələ də öz aktuallığını qoruyub-saxlamaqdadır. Seyran Səxavətin "Paravozsürən" hekayəsinin baş qəhrəmanı Zülfəli də Mirzə Ələkbər Sabirin satiralarının qəhrəmanları kimi məktəbi, maarifi lənətləyir, oxumuş adam görmək istəmir.**

**(ardı növbəti sayımızda)**

**Xəyalə Zərrabqızı**

# “Meyxana bizə cəmiyyətin savadsızlığından, boşluğundan soxuşdurulan bir şeydir”

*Abşeron qrupunun üzvü Şəhriyar Məhərrəmov Adalet.az-a müsahibə verib.*

**- Şəhriyar, bir ildir ki, toy yoxdur, özün də müğənnisən. Nə ilə dolanırsan, necə gedir pandemik həyat? Yəqin ki, böyük təsir etməmiş olmaz..**

- Düzdür, toylar yoxdur. Axırıncı dəfə toyda 2020-ci il martın 15- i oxumuşam, ondan bəri də bəlli məsələ. Amma heç bir əks təsiri olmayıb. Yəni, maddi baxımdan. Mənim başqa gəlir yerim də var. Biznes də deyə bilərik. Hətta əksinə, indi daha çox artıb. Bu işlə toylara görə çox məşğul ola bilmirdim. Amma mənəvi çətinlik, sıxlıq var təbii ki..

**- Mənəvi sıxlıq dedikdə, toylar üçün darıxırsan? Həm də deyirsən, əksinə, indi daha çoxdur. Elə isə toylar başlayanda qayıtmamaq da olar, hə? Yoxsa bu da elə mənəvi aclıqdır?**

- Yox, açığı. Mənəvi o idi ki, bu il çox planlarım var idi. Xaricə getməli idim. Maska bezdirir, idman edə bilmirəm. Restoranlar bəlli məsələ. Gah açılır, gah bağlanır. Dost-tanış ürəyin istəyir.. Nələr-nələr. Ağır keçdi. Sonra da müharibə başladı. Acı yaşadıq nə qədər. Müharibədə iştirak edən fiziki yara alır, biz də mənəvi.

Hər gün nə qədər neqativ məlumatlar, insan ölümləri. Bəlkə də emosional insanam deyə belədir. Şəxsən mənə çox pis təsir elədi. Hər gün videolar görürük. Şəhidlərin son videoları, məktubları, şəhid ailələrinin ağrı əzabı və.s. Mən bunlara görə çox əzab çəkdim. Həmişə demişəm, müharibə əxlaqsızlıqdır. İlk gündən sülh tərəfdarı idim. Amma neyləmək olar ki, oldu, məndən asılı deyil. Tramva yaşadıq..

**- Musiqi sahəsində bəs? Bu qədər musiqisiz qalmaq uzaqlaşdıracaqmı sənətdən? Səni "Abşeron" qrupundan tanıyırıq. Nə düşünürsən bundan sonrakı musiqi fəaliyyətin haqqında. Davam, ya tamam?**

- Musiqisiz qalmıram. Ən azı dinləyirəm. Amma oxumuram artıq uzun müddətdir. Necə ki, bir il idman eləməsən bədən yatır, eləcə də səs. İndi bu da öz təsirini göstərəcək. Amma toylar və işlər başlamağa bir ay qalmış məşq edəcəyik, düşünürəm ki, böyük çətinlik olmayacaq. Bir sözlə, davam.

### *"Qadınlar bütün ən gözəl geyimləri, zinət əşyalarını harda göstərir?"*

**- Şəhriyar, "Abşeron" qrupunda ifa etdiyiniz mahnılar çoxları tərəfindən ciddi qəbul olunur. Maraqlıdır, özün də daim bayağı mahnıları tənqid edirsən. Amma toyda sifariş olanda necə, heç olur ki, burda ciddi musiqidən danışıb, toyda "Can-cana" oxuyasan? Ümumiyyətlə, bayağı bilinən digər toy mahnılarını da..**

-Bilirsən, Orxan, mən həmişə demişəm, toy Azərbaycan xalqının milli mənəvi dəyəridir. Bu gün hamımız toydakı israfçılıqdan danışırıq. Bəyəm, bu, bugünün işidir? Bu adamlar dastan zad oxumayıb? Bizim xalqımızdır da. Gedib, 7 gecə, 7 gün, 40 gün məclis olub. Yəni, bugünki məsələ tarixi genefondumuzdur. Məişətimizə, xarakterinizə hopub. Müəyyən istisnalar çıxmaq şərti ilə bu həmişə belə olacaq. Çünki konrket olaraq bu xalq olaraq əsrlərdən süzülüb gələn ənənədir. Amma mən özüm də bunu bəyənmirəm, açığı. Nə edə bilərəm? İşin ikinci tərəfi. Toy Azərbaycan insanının istirahət yeri, əyləncəsidir. Xüsusən Azərbaycan qadınının. Etiraf edək, kişilər dominatdır. Patriarxal cəmiyyətik. Əksərən qadınlar işləmir, işləyən də işə gedir, evə gəlir. İşdən çıxma vaxtı da sıxma boğma olur. O, deyə bilərmi işdən çıxıb oturmuşam rəfiqəmlə? Yenə deyirəm, müəyyən istisnaları çıxmaqla. Məsələn, mənim olduğum Kürdəmir. Orda qadınların oturmağa kafesi belə yoxdur. İndi bu qadın neyləməlidir? Əyləncəni toyda görür. Yeganə yer buradır. Qadınlar bütün ən gözəl geyimləri, zinət əşyalarını harda göstərir? Toyda.

Çünki başqa yeri yoxdur, başqa əyləncə yoxdur axı. Puba, kafeyə gedə bilmir. Toyda da ona görə 6 saat oynuyur. Bəzən bunu da lağa qoyurlar. Niyə? Bu insanın çıxış yolu budur axı. O insan toyda can-cana istəyəcək də. İçindəki yığılıb qalan hər şeyi boşaltmaq üçün nə gəldi oynayacaq. Məni toy sahibi çağırır, toy sahibinin istəyi ilə gəlirəm, pulu o verir. O deyirsə, bunu istəyirəm, onu istəyirəm, istək nəzərə alınır. Bu dövlət tədbiri deyil, müqavilə bağlamırıq. Toydu da. Oxumuşam bayağı mahnılar. Oxuyaram da. Amma bu, toyda bayağılıq deyil. İnsandır da, oynamaq istəyir. Burda nə var ki. Bəzi müğənnilər deyir, bütün toy ciddi mahnılar olmalıdır. Olmur axı. Opera konserti deyil axı bura. Ciddi mahnı da oxuyuram. O qədər şey oxuya bilərəm ki. Amma bütün toyu ciddi mahnı oxusan olmur. Amma bəzən elə toylar da olur. Kontingentə baxır. mən doğulduğum Kürdəmirin Yenikənd kəndində ciddi əsər oxusam, deyəcəklər, bala Nərgiz oxu, qara zurnada heyva gülü oxu və.s. Məsələn, Şimal zonası ləzginka ritmlərinə üstünlük verir, Cənub İran ritmlərinə, Yerazlar yallı üstündə, qara zurna havaları. Bunlar həm də ənənədir, folklordur. Mənim tənqid etdiyim məsələ insanların ümumi zövqüdür. Toy tamam başqa bir şeydir.

### *"Bayağı da yox e, çox iyrənc bir tərzlərə çevirdilər"*

**- Deyirsən ki, bütün bunlar folklordur, adət-ənənədir, dəyişmək çətindir və.s Bəs, onda meyxana deyənləri niyə sərt şəkildə tənqid edirsən? Toyda da meyxana deyilir. Bunu da istəyirlər axı. Həmin o cəmiyyətdir, adət-ənənəyə bağlı kütlədir də. Haqqları yoxdurmu? Varsa, niyə bu sənətin yerli-dibli yox olmasını istəyirsən?**

- Bəli. Mən həmişə bunu demişəm. Meyxana bizim folklor deyil. Yaxşı araşdırsın belə deyənlər. Meyxana son 50 ildə, Sovetdən bəri yaranan bir küçə sənətidir. Heç sənət də demək olmaz. Kimsə deyə bilər ki, Nəsimidə meyxana zad deyib, amma xeyir, o, meyxana deyil, tamam başqa bir şeydir. Biri var, bunu Əliağa Vahid, Ağasəlim və digərləri şəklində davam etdirmək olardı. İndiki kimi yox. Bunu sənətə çevirmədilər axı. Bunu sözdən çıxardıb elədilər mərsiyyə fason İran ağlaşması. Bayağı da yox e, çox iyrənc bir tərzlərə çevirdilər. Bu, qəbul olunmazdır. Deməyim odur ki, meyxana bizə son illərdə cəmiyyətin savadsızlığından, boşluğundan soxuşdurulan bir şeydir.

**- Konkret olaraq deyirsən ki, meyxana bizə heç nə qazandıra bilməz, bunu birdəfəlik kəsib atmaq lazımdı? Kim istəyir istəsin, zövqü necə olur olsun, qəbul etməyək? Səncə, bu daha da radikal mövqe deyilmi? Milyonlarla insan meyxana dinləyir. Hamısı zövqsüzdürmü? Həm də, müasir meyxanada da kifayət qədər adını sadaladığın sənətkarların davamçıları var, ciddi sözlər deyə bilirlər. Məsələn, musiqili bayağı meyxanalardan uzaq...**



- Yox, kəsib atmayaq, amma onu əsl söz yarışması olaraq inkişaf elətdirə bilsək, əla olardı. Biz meyxananın üslubunu dəyişdik. Yəni, müasir meyxana deyənlər. Elədilər nə? Dilənçilik. Gəldilər 5 nəfər toya, söz deyişməsi qaldı kənarda, getdilər bəyin əmisinin adı, dayısının adı və.s yığdılar, bir-bir başladılar onların şəninə söz deyib pul yığmağa. Bu, sənət deyil axı. Dilənçilik deyilmi bu? Ya da yığıldılar palatkaya, iyrənc şəkildə narkotika, içki, başladılar heç bir faydası, təsiri olmayan cümlələri, söz yığınları deməyə. Deyirlər, baxırsan, mahiyyət yoxdu. Qafiyə uyğun gəlsin, onunla da bitdi. Bu da oldu meyxana.

### *"Bizdə yaxşıya az, pisə çox baxırlar"*

**- Bəs, təklifin nədir? Ümumi olaraq musiqini necə inkişaf elətdirə bilərik?**

- Musiqi nəinki hansısa cəmiyyətdə, ucqar adada da inkişaf etdirmək olar. İnsanı apar qoy idmançıların kruquna, bir neçə aya o da başlayacaq. Maraq oyanacaq. Ya da kitab oxuyanların. Bir müddət sonra başlayacaq. Musiqi də belə bir şeydir. Sən xalqa bütün günü axmaq-axmaq musiqi dinlədəndə əlbəttə belə olacaq. Birinci televizordan başlamaq lazımdır. Baxırsan, 4 meyxana deyən paçasını aralayıb meyxana deyir. Ora baxanın nə zövqü olacaq? Sadə bir məntiqdir bu. Yəni, söhbət yetişməkdən gedir. Azərbaycan kanallarının hamısında musiqi bu cürdür. Musiqili meyxana zad. Bununla nə zövq formalaşacaq ki? Ona baxan uşaq da düşünür ki, musiqi elə budur. Gözünü açıb rakadaçiko görən nə eləsin? Sən bu cür uşağa Elza İbrahimova, Aygün Səmədzadə və.s dinlədə bilərsənmi? Yox. Digital pratforma inkişaf etməlidir. Avropanın heç bir ölkəsində heç bir mahnını mp3 lə yükləmək olmur. Mən gedib görürəm. Ayda pul ödəyib almalıyıq. Müğənni mahnısını satmalıdır. Niyə? Toydan əlavə öz əsərindən alternativ pul qazanmalıdır. Bizdə bu da yoxdu. Təkcə toyun umuduna qalmayacaq, məcbur qalıb toy mahnıları oxumayacaq. Toy tutmaq üçün toy mahnıları yazır. Neyləsin, ac qalsın? Qaldı Trendlərə, belə deyil. Yaxşıya da baxırlar, pisə də. Bizdə bir az fərqlidir. Amerikada Maykl Cekson. Ona da 2-3 milyard baxırlar, səviyyəsizə də. Yəni, yaxşı hər yerdə var. Bizdə yaxşıya az, pisə çox baxırlar. Problem budur.

**- Şəhriyar, sən musiqidən kənara başqa məsələlərdə də gündəmə gəlmisən, tənqid və təhqir olunmusan. Məsələn, qadın azadlığı, azad seks. Deyirsən ki, qadın evli olsa da istədiyini etmək də azaddır. Məsələn, bara getmək istəyirsə, getsin, istəyir çox qısa geyinsin. Subaylar da istədiyi ilə yatıb azad seksi formalaşdırsın. Aydındır ki, bizim cəmiyyətə yad bir şeydir bunlar. Təbii olaraq da sərt qarşılanır. Səncə, dediklərin nə vaxtsa mümkün olacaq?**

- Azadlıq mənim ən yaralı yerimdir, xüsusi ilə Azərbaycan adamı barədə. Nəinki belə, ümumən azadlıq. İnsanın genetikası azadlıq tələb edir. Mən ilk əvvəl insan azadlığı istəyirəm, amma bizdə kişilər nisbətən azaddır, amma qadınlar məhduddur. Ona görə də mən qadınları daha çox istəyirəm.

Azad insan yaradıcı olur, insanı inkişaf etdirir, proqressiv olur, kreativ olur. Məşhur filosof Aleksandır Sojinetsın. Onun kitabı var. Bütün alimlərin professorları həbsxanaya yığıb onlardan nəsə tələb eləməkdən gedir söhbət. Mümkün deyil axı. İnsanın, ümumilikdə fərdin hər mənada azadlığı vacibdir. "Səhra çiçəyi" əsərində qadının Somalidəki vəziyyəti və azad avropada vəziyyəti. Orda necə inkişaf edir, burda necə edir. Mühit adamı hardan hara gətirir. Amma bizimkilər mən azadlıq deyəndə elə bilirlər sırf sekslə bağlıdır. Bunlar sadəcə detallardır. Göstərirəm ki, məsələn, pub disko çox sadədir, paltar elə, paltar belə, ailəli qadın ərindən icazəsiz harasa getməz zad. Hələ də bunlarda ilişib qaldığımızı deyirəm. Mən məcburam ki, ancaq bunları deyəm. Çünki bundan çıxa bilməmişik. Siqaret çəkəni fahişə kimi qələmə verirlər. Heç amma fahişəlik də qınaq obyekti olmamalıdır. O da şəxsi bədənini satır. Ona görə azadlıq deyəndə mahiyyəti anlamırlar deyə ilişib qalırlar xırda detallarda.

### *"Hər şeyi kişilər təyin edir, idarə edir"*

**- Bəs niyə azadlıq deyəndə ilk olaraq seks düşünürük? Tək bizim cəmiyyətdədir bu səncə? Nədi səbəb? Mütləq azadlıq seksdən keçməlidir?**

- Çünki Azərbaycan adamı uşaqlığını, gəncliyini seksual tramva ilə keçirir. Seks aclığı, həsrəti ilə keçirən Azərbaycan insanı üçün bu bir tabudur. Belə adam üçün seks sözü tabudur. Seks yaşaya bilməyən insan aqressiv də olacaq. Niyə bizdə açıq geyinəndə onu qınayırıq? Bu namus deyil a. Özü yaşaya bilməməkdir.

Oğlan əldə edə bilmir həmişə, o cür ola bilməyən başqa qız da əsəbiləşir ki, mən niyə ola bilmirəm belə. İnsan təbiətdə milyonlarla canlının bir növüdür. Biz özümüzə çox qadağa və çərçivələr qoymuşuq. Bu çərçivələrə məruz qalan Azərbaycan qadınıdır. Kişi yenə gedir orda-burda bazlığını edir. Biz patriarxal cəmiyyətik. Hər şeyi kişilər təyin edir, idarə edir.

Hər şey kişinin əlində olanda cəmiyyəti də bədbəxt edir. Həm qadını, həm də elə ümumi cəmiyyəti. İdarəçilik qadının əlində olsa başqa cür olardı. Kişiyə nisbətən onlar liberal, humanistdir. Burda çox amil var. Hətta din amili, islam amili var.

**- Şəhriyar, son olaraq müsahibəni oxuyanlar sənin hansı musiqinə qulaq asa bilər ki, tanımırsa tanısın, dediyin ciddi musiqi ilə tanış olsun?**

- Biz o vaxt qrupu yaradanda dedik ancaq ciddi mahni oxuyacayıq. Getdik, Telman Hacıyevin Abşeron mahnısını yazdırdıq. Qulaq asan olmadı. Sonra Eldar Mansurovun bəxt üzüyü saundtrekində musiqini aranjiman elədik. O da eyni reaksiya. Min baxış oldu. Bizdə başladıq kommersiya oxumağa. Deməzdim bayağı, amma xalqın ruhuna yaxın oxuduq. İnsan pul qazanmalıdır. Sovet bizi məcbur edirdi simfonik olaq. Skiripka, saksafon zad. Amma bizim folklorumuz saza, oynamağa bağlıdır. Opera bizlik deyil. Ruhumuza yaddır. Mirzə Babayev kimi sənətkar oxuyanda hamı deyirdi kəpənək uçurdan kişi. Rayonlarda heç bilmirdilər Tofiq Quliyev kimdir. 90-lardan sonra düzəldi. Onda da olduq meyxana sevər xalq.

Çünki bunu xoşlayırıq. İndi bizdə, ancaq ciddi oxusaq kim qulaq asacaq, necə pul qazanacağıq? Başladıq qara zurnada da oxumağa. Son çıxartdığımız mahnılardan biri " o bilmədi"-dir. 6 milyon baxış var. Qulaq asa bilərlər. Mən tək oxumuram. Qrup şəklində oxuyuruq deyə, qrupun adından danışdım. Mənim özümə qalsa, tamamilə başqa bir şeylər oxuyaram. Bizdə insanlar üçün oxuyuruq. Bəzi şeylərə məcbur oluruq. Xalq artistlərinin 99 faizi görürsən necə savadlıdır, haranı bitirib, muğam falan amma gedib başqa şey oxuyur. Niyə? Çünki camaat bunu istəyir, o da məcburdur ki, istəniləni oxusun. Qazanmalıdır axı.

**- Müsahibə üçün təşəkkür edirik.**

- Buyurun. Mən də.

**Orxan Saffari**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 18 (2199) 16 fevral 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# ŞƏHƏR TALEYİ ARZULU QƏSƏBƏ

**Bu gün Azərbaycanda bu qəsəbəni demək olar ki, hamı tanıyır. Xüsusilə 27 sentyabr 2020-ci il tarixli Böyük Vətən Müharibəsi başlayandan sonra işğal altındakı ərazilərimiz birmənalı şəkildə gündəmi zəbt etdiyindən böyüklü-kiçikli hər kəs bölgəni bir növü "səyahət" etdi. Kimi xəritədə, kimi xatirələrdə, kimi də dost-tanışdan eşitdiyi söz-söhbətdə. Konkret şahidi olduğum mənzərə bu idi ki, "Ədalət" qəzetinin redaksiyasında divardan asılmış məmləkətin iki fərqli xəritəsinin önündə hər səhər az qala növbə yaranırdı. Hamı döyüş əməliyyatlarını bu xəritədən izləyirdi. Bax onda çoxlarının tanımadığı və yaxud harada yerləşdiyini bilmədiyi Hadrut qəsəbəsi də gündəmə gəldi...**

Mən sovet dönəmində coğrafi ərazi vahidi kimi Dağlıq Qarabağ Muxtar Vilayətinin rayonlarından biri olan Hadrut rayonunda doğuldumdan bu rayonun mərkəzi olan Hadrut qəsəbəsini də çox gözəl tanıyıram. Necə deyərlər, az qala bütün ərazisini qarış-qarış gəzmişəm. Xüsusilə xan çinarın altındakı çay evi hər zaman yuxuma girirdi. Ona görə də Azərbaycan prezidenti cənab İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunduğunu bəyan edəndə elə bildim ki, orta məktəb illərim, gəncliyim geri qayıtdı. Çünki...

Gözümün önünə gətirirəm... Son dərəcə qəribə mənzərəsi var Hadrutun. Dağların qoynunda yerləşir, bir az da dağların sinəsində. Buranın təbiəti elədir ki, dağlardan üzü aşağı meşə gəlir. Lap gəlib daxil olur Hadrutun içərisinə. Aşağıdan üzü yuxarı üzüm bağları, tut bağları qollarını açır Hadruta tərəf.

Üstəlik, Hadrutun içərisindən axıb gedir Odlu çaya birləşən çay boyu qoz ağacları bir-birinə sarmaşıb. Arasından külək də keçmir. Bu, təbiətin bir möcüzəsidir.

Elə yeri gəlmişkən, bir haşiyə çıxım. Nədənsə Hadrut qəsəbəsinə düşən hər kəs mütləq qəsəbənin mərkəzi sayılan çinarın dibində mütləq çay içməli idi. 30 qəpiyə bir çaynik çay alırdın və az qala indi satışda olan qəndlərin dörddə biri ölçüdə xırda qəndləri çayçı gətirib qoyardı nəzakətlə qarşına.





Biz də hərdən şıltaqlıq edərdik, qəndi üç-üç qoyardıq ağzımıza. Çayçı hay-həşir salardı və guya əzizləyirmiş kimi deyərdi:

- Ay tork, (yəni türk - Ə.M.) bu çay içmək üçündü, yemək üçün deyil...

Təsəvvür edin ki, biz gülürdük və onun bizi türk adlandırmasına o qədər də önəm vermirdik. Sən demə, elə həmin illərdə artıq erməni dəyirmanı öz işində imiş...

***Bəli, Hadrutun coğrafiyası elədir ki, bir damla suyu da tutiyə sayıla bilər. Torpağının barı-bərəkəti yığıb-yığışdırmaqla bitən deyil. Təsəvvür edin ki, burada şərab emalı zavodu, şirə zavodu, dəyirman, böyük və müasir xəstəxana, poçt rabitə mərkəzi, bank, üçmərtəbəli məktəb, eləcə də dövlət qurumlarına aid bütün inzibati binalar çox yüksək zövqlə inşa edilmişdi. Burada sovet sərhəd qoşunlarının zastavası da yerləşdiyindən qəsəbə daha çox müasirlik təsiri bağışlayırdı. Bir tərəfdən rus zabitlərinin ailələri burada yaşayır, övladları təhsil alır, digər tərəfdən rayonun aurası xüsusilə yayda çoxlu qonaq-qara cəlb edir. Və bu da qəsəbənin həmişə diqqətli olmasına, abadlıq-quruculuq işlərinin nəzarətdə saxlanmasına bir ipucu verirdi.***

Bu gün işğaldan azad edilmiş Hadrut qəsəbəsini mavi ekrandan izləyən hər kəs bu ərazinin hansı göz-könül oxşayan üstünlüklərə malik olduğunu artıq yəqin ki təxmin edibdi. Mən Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq iqtisadi gücünə və coğrafi üstünlüklərinə bələd olduğum Hadrut qəsəbəsi ilə bağlı düşüncələrini yazıya köçürərkən öncə iki məqamı önə çəkdim. Onlardan birincisi Hadrutun böyük turizm potensialına malik olmasıdı. Yəni bir tərəfi Ziyarət dağı, bir tərəfi İlanlı dağ, qarşı tərəfi Ərgünəş olan burada turizm inkişaf etdirilməsi üçün çox böyük imkanlar var. Sadəcə olaraq, Füzuli rayonunun Odlu çay dərəsi boyunca Hadruta doğru uzanan massivdə katejlərin tikilməsi, pansianatların salınması asan başa gələn bir işdir. Sadəcə, bu işin qulpundan yapışmaq lazımdı.

İkincisi, zənnimcə əgər (çox istərdim ki, bu arzum yerinə yetsin - Ə.M.) Azərbaycan prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Hadrut qəsəbəsinə səfər edərkən bu qəsəbənin ölkəmiz üçün nə qədər önəmli olduğunu birmənalı şəkildə aidiyyəti qurumlara, xüsusilə ölkə iqtisadiyyatı və turizmlə məşğul olanlara göstərmiş olar.

Çünki həmin səfər zamanı xalqımıza təqdim ediləcək geniş informasiya Hadrut qəsəbəsinin bütün tarixini və perspektivlərini ortaya qoymuş olacaq.

Burada quşçuluğun, digər heyvandarlıq təsərrüfatlarının bəslənməsi. Eləcə də Hadrut qəsəbəsinin içərisindən keçən göz yaşından duru sularda balıq yetişdirilməsi bu ərazinin iqtisadi gücünü daha da artırar. Indiki kimi xatırlayıram, Sovet dönəmində Hadrut qəsəbəsinə Bakıdan, Sumqayıtdan, Füzulidən, Xankəndindən, hətta İrəvandan avtobuslar işləyirdi. Kiçik bir qəsəbəyə hər gün gəlib-gedən bu avtobusların sərnişinlərinin əksəriyyəti yay mövsümü turistlər olurdi. Deməli, tarix kitablarında adı hələ osmanlıların Dizak mahalı kimi qeyd etdiyi Hadrut kəndi 1939-cu ildə Hadrut rayon mərkəzi kimi formalaşmışdı. Bu ərazini də 1992-ci ilin oktyabr ayının 2-də ermənilər işğal etmişdilər.

**Tarixi bir xoşbəxtlik və yaxud da tarixin təkrarıdı. Hadrut rayonu oktyabr ayında işğal olunmuşdu. Amma 28 ildən artıq davam edən, tam dürüstlüyü ilə ifadə etsən, 28 il 7 gün davam edən həsrətimiz 2020-ci ilin oktyabr ayının 9-da sona çatdı. Oktyabrda işğal olunmuş Hadrut oktyabrda da öz sahibinə qovuşdu. Bu gün artıq qəsəbədə müəyyən işlər görülməkdədir. Xüsusilə yol, işıq, digər infrastrukturlar. Həmçinin bankların filialları, səhiyyə xidməti artıq burada həyatı sanki oyadır, yaddaşa daş atır və Hadrutu yenidən qurub-yaradanlara xidmət edir. Bu da onu göstərir ki, biz qarşımıza qoyduğumuz məqsədə mütləq qovuşacağıq. Və onda məndə bir inam var ki, Hadrut da Azərbaycanın ikinci bir Şuşası kimi dilimizin əzbərinə çevriləcək, onda hər kəs azad və gözəl bir şəhər kimi gəzib seyr etməyə tələsəcəkdi. O gün uzaqda deyil. Bu qəsəbənin taleyinə şəhər günəşi də doğacaqdı. Mən buna inanıram. Bu inamımı Ali Baş Komandanımız cənab İlham Əliyevin Hadruta edəcəyi səfər yəqin ki, tezləşdirəcək.**

***Əbülfət MƏDƏTOĞLU***

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**



***Qılman İMAN***

**Soruşsalar günahımı,**
**Batıb günaha deyəcəm.**
**Yol yox, dünənə getməyə,**
**Nə də sabaha deyəcəm.**

**Düzlük görmədim düzündə,**
**Günlər azır gündüzündə.**
**Mən burdayam - yer üzündə,**
**Axtarma daha, deyəcəm.**

**Fatma nənənin qurşağı,**
**Sevindirmir ta uşağı;**
**Göy üzündən düş aşağı,**
**Gedib Allaha deyəcəm.**

***

**Dünyaya ümidli olub yaşarıq,**
**Maaş aldığımız iş yeri kimi.**
**Ömrümüz içində günlər görünər,**
**Çəkilib atılmış diş yeri kimi.**

**Ay bulud, sənə də ağlamaq olmaz,**
**Ağlasan, göz yaşın saxlamaq olmaz.**
**Allahı bu qədər dağlamaq olmaz,**
**Göy üzü qaralıb şiş yeri kimi.**

**Qoy çəksin sevincin qəm həsrətini,**
**Axtara-axtara öz "qismətini".**
**Bizsiz anaların darıxır bətni,**
**Qoyub gəldiyimiz köç yeri kimi.**

***

**Ürəyimdən keçənlər də**
**Gəlib könlümdən addıyır.**
**Sevinc sevincnən yeriyir,**
**Zülm zülmnən addıyır.**

**Ay göndərən yanmadı şam,**
**Olmayacaq sabah axşam.**
**Odeyy, bir körpü salmışam,**
**İçim çölümdən addıyır.**

**Ömür düşəndə qəzaya,**
**Əcəlimiz yetir haya.**
**Bu dünyadan o dünyaya**
**Hamı ölümnən addıyır.**

## *Səbahəyə*

**Duaya açılan əllər**
**Ovcunda saxlar Allahı.**
**Mələklər mürgü tutanda**
**Fələklər yoxlar Allahı.**

**Çəkilib göyün üzünə,**
**Axar, ələnər düzünə...**
**Hamımızın əvəzinə**
**Bu yağış ağlar Allahı.**

**Ahımız ün alıb neydən,**
**Qolumuz asılıb heydən.**
**İp sallayıb yerə göydən**
**Kim bizə bağlar Allahı?!**

***

**Yaşayırıq can boğaza,**
**İlahi, - yığılan yerdə.**
**Saman çöpü də tapmadıq**
**Ümidlər boğulan yerdə.**

**Əllərimiz əlcək-əlcək,**
**Cibimizdə can verəcək.**
**O dünyanı kim tikəcək**
**Bu dünya dağılan yerdə.**

**Adəmdən, Həvvadan bəri,**
**Alnımızda əcəl təri.**
**Dəfn elədik sevgiləri**
**Adamlar doğulan yerdə.**

# Məktəblər zəruri hesab etdikləri əyani dərslərin sayını artıra bilərlər

**Məktəblərdə qruplar şəklində olduqda əyani dərslərin sayının artırılması imkanı var. Bu məsələyə məktəb rəhbərliyi baxır, onlar zəruri hesab etdikləri əyani dərslərin sayını artıra bilərlər.**

Bunu Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin əməkdaşı Gülarə Xudiyeva deyib.

Onun sözlərinə görə, məktəblərə tövsiyə edilir ki, şagirdlər həftədə 2 dəfə məktəbə gedirlərsə, gün ərzində keçirilən dərslərin sayı 5 saatı aşmasın. Tövsiyələrə əsasən, həmin 2 gün ərzində 3-5 saat ən zəruri olan, şagirdlə müəllimin təması vacib bilinən fənlər məktəblərdə, qalan dərslər isə distant fomada tədris edilsin:

**"Əyani formada 3-5, distant formada 5-6 saat olmaqla, şagirdlərin həftəlik dərs yükü bölünür. Məktəblərimizin bir çoxunda 5 günlük tədris həftəsi tətbiq olunurdu. Lakin indiki halda bir çox məktəblərimiz 6 günlük tədrisə keçirlər".**

# "40 illik xətri olan" qəhvənin təsirləri: Nikotinlə eyni anda içiləndə...

**Söhbətimə qardaş türklərin bir deyimi ilə başlamaq istəyirəm. "Bir fincan qəhvənin 40 illik xətri var" deyimi artıq Türkiyədə atalar sözü kimi işlənir. Qış fəsli olduğu üçün isti mayelərə tələbat böyükdür. Çay və yaşıl çaydan sonra qəhvə də qış fəslində ləzzətlə içilən isti içkilərdəndi. Əvvəlcə qəhvə haqqında:**

## *Qəhvə*

İlk dəfə qəhvə Həbəşistanın cənub qərbində yerləşən Qaffa bölgəsində aşkar olunmuşdur.

Sonralar qəhvə Mərkəzi Ərəbistana gətirilir. Yəmənin cənub qərb hissəsində becərilir. Bu günə kimi də Yəmən dünayada ən böyük qəhvə istehsalçısıdır. Hazırda dünayda 50-dən çox ölkədə qəhvə bitkisi növləri becərilir.

Qəhvənin hazırlanmasının Həbəşistan üsulu ən qədim üsul sayılır. Dənəciklər qovrulduqdan sonra üyüdülür. Üyüdülmüş qəhvə tozu su və qəndlə birlikdə qaynadılır və Yabana adlanan maye hazırlanır. Yohan Volfqanq Göte qəhvə dənəciklərini distilə etmək ideyasını verir. Bu ideyanı həyata keçirən zaman kimyaçı Fridlib Runq kofeini aşkar edir.

***Tezliklə qəhvə Fars və Osmanlı İmperiyasına yayılır. 1517-ci ildə Yavuz Sultan Səlimin dövründə türk əsilli Özdəmir paşa Yəməndə içdiyi və çox sevdiyi qəhvəni İstanbula gətirmişdir. Qahirəyə qəhvə ilk dəfə 1532-ci ildə gətirilimişdir. Paralel olaraq qəhvə Suriya və Kiçik Asiyaya da yayılır. Qəhvənin tətbiqi 1538-ci ildə Yəmənin işğalından sonra daha güclənir. 1554-cü ildə Osmanlı imperiyasında gedən çəkişmələrdən sonra Konstantinopolda qəhvə evi açılır.***

***Buna baxmayaraq qəhvənin ölkədə rəsmi içki kimi qəbul edilməsi tanzimatın 1839-cu ildə apardığı islahatlara qədər davam etmişdir. 1573-cü ildə Almaniyalı həkim Leonard Rauvolf Aleppoda bu içkinin dadına baxır və 1582-ci ildə onun haqqında yazır. Başqa mənbələrə görə 1592-ci ildə Prospero Alpino tərəfindən qəhvə İtaliyaya gətirilir və beləliklə bu içki Avropaya qədəm qoyur.***

## *Qəhvə evləri və nəcisdən qəhvə*

1645-ci ildə Venedihdə, 1650-ci ildə Oksfordda və 1652-ci ildə Londonda qəhvə evləri mövcud idi. Fransada ilk dəfə qəhvə evi 1659-cu ildə tikilir. Vyanada qəhvə evi 1683-cü ildə türklərə qarşı müharibədə ələ keçirilmiş 500 kisə qəhvə qənimətindən sonra açılmışdır. Bu evi türklərin əsiri olmuş polşalı Georg Kolşitçki təşkil etmişdir. Almaniyada qəhvə Fransadan gətirilir və ilk dəfə olaraq 1673-cü ildə Bremendə qəhvə evi təşkil olunur. Az keçməmiş bu bütün Almaniyanı bürüyür və XVII əsrin sonu böyük şəhərlərin əksəriyyətində qəhvə evləri fəaliyyət göstərirdi. 1899-cu ildə isveçrə kimyaçısı Maks Morqentaller qəhvə tozunu düzəldir. Həll olan qəhvə XX əsrin 40-cı illərindən başlayaraq geniş yayılır.



***Yeri gəlmişkən, son məlumatlara əsasən, dünyanın ən bahalı qəhvəsi İndoneziyadakı adalarda yaşayan və müşk pişiyi olan Paradoxurusun yediyi qəhvə dənəciklərinin daha sonra nəcisindən toplanmasıyla əldə edilir. Bu kofenin kiloqramı təxminən 350 avroyadır. Avropalıların yeni kəşf etdiyi bu qəhvənin bir fincanı 20 avroya satılır. İstehsal prosesinə gəlincə, qəhvə istehsalçıları tərəfindən saxlanılan Paradoxurus qəhvə ağaclarındakı ən keyfiyyətli dənələri yeyir. Onlar heyvanın mədəsində bir növ fermantasiyaya uğrayır, ancaq ərimir. Nəcis yoluyla atılan nüvələr toplanaraq satılır.***

## *Qəhvənin zərərləri*

Qəhvə içmək bir çox adam üçün böyük bir zövq və imtina edilməz bir vərdişdir. Ancaq gümrah qalmaq və enerjimizi yüksək səviyyədə tutmaq üçün az qala hər gün içdiyimiz qəhvənin faydalarının yanında bir o qədərdə ciddi zərərləri olduğunu unutmamaq lazımdır.

Yüksək təzyiq: araşdırmalara görə, nizamlı olaraq gündə 4-5 stəkan qəhvə içənlərin qan təzyiqləri, yəni təzyiqləri sürətlə yüksəlir. Həddindən artıq qəhvə istehlakı ürəyin ritminə mənfi istiqamətdə təsir edir.

Qəhvənin ehtiva etdiyi kofein çox istehlak edildiyində, ürəkdə ritm pozuqluqları meydana gələ bilir. Nizamsız ürək atışları və ürək vurmasına səbəb ola bilir. Bu səbəblə xüsusilə ürək xəstələrinin məhdud miqdarda qəhvə içmələri lazımdır.

Qəhvə, mədə xorasını sürətləndirir. Bu səbəblə mədə xəstələrinin gündə 2 fincandan çox qəhvə istehlak etməmələri lazımdır.Araşdırmalar, yemək zamanlarında yüksələn qan şəkəriylə birlikdə istehlak edilən qəhvənin şəkər xəstəliyini mənfi istiqamətdə təsir etdiyini ortaya qoyurdu.

Mütəxəssislər şəkər xəstələrinin də qəhvəni məhdud istehlak etməsini təklif edir.

Mütəxəssislərin bir qismi qəhvənin bədəndə maye itkisinə səbəb olduğunu müdafiə edərkən, bir qismi də bu itkinin əhəmiyyətsiz dərəcədə az olduğunu müdafiə edirlər.

Lakin yenə də ağırlıq təşkil edən görüş digər kafeinli içkilər kimi qəhvənin də bədəndə su itkisi yaratdığı istiqamətindədir.

## *Qəhvənin faydaları*

***Qəhvə, yaşıl və qara çay kimi antioksidantlar ehtiva edir. Bu da xərçəngə gətirib çıxaran hüceyrələrin çoxalmasına maneə törədir. Ayrıca, edilən bir araşdırmada, qəhvənin və məşqin günəş şüalarının səbəb olduğu dəri xərçəngindən qoruduğu ortaya çıxdı. Araşdırmaya görə, fiziki məşqlə birlikdə ölçülü qəhvə istehlakı, günəşin ultrabənövşəyi B (UVB) şüalarının gətirib çıxardığı kanserojen təsirləri ortadan qaldıra bilir.Qadın bədəni kişiylə müqayisədə iki qat daha çox öd daşı çıxarır. Gündə dörd stəkan qəhvə içən qadınların içməyənlərə nisbətlə 25 % daha az öd daşından şikayət etdiyi sübut edildi.***

Qəhvə konsentrasiyaya köməkçi olur. Britaniya Tibb Jurnalının araşdırmalarına görə, məktəb çağındakı uşaqların az miqdarda qəhvə ilə süd içdiklərində səhərki dərslərində daha müvəffəqiyyətli olduqları görülür.

Qəhvə istehlak etmək xüsusilə qaraciyər xərçəngi riskinin azaldılmasına köməkçi olur. Nizamlı qəhvə içənlərin qaraciyər narahatlıqlarından daha az şikayət etdiyi görülür.

## *Nikotin və kofein*

Son zamanlar insanlar, xüsusən gənclər qəhvə içərkən siqaret də çəkdiyinin şahidi oluruq.

Hər iki istehlak növünün eyni anda tükədilməsi nə qədər xeyirlidir və nə qədər zərərlidir, deyə düşünüb mənbələri aramaq, nəticəni tapmaq istədim. Deməli, onları birlikdə qəbul edildikdə beyində bir asılılıq zənciri yaradır.

**Qəhvə və siqaretin birbaşa istehlakının səbəbi əsasən sosial vərdişlərdir. Nikotin və kofein birlikdə alındıqda beyində müəyyən bir asılılıq zənciri yaradır. Buna görə də, siqareti tərk edənlər kofeinin həddindən artıq istehlakını məhdudlaşdırmalıdır.**

**Əntiqə Rəşid**

# "Brilliant Dadaşova xoşlamır ki, işinə qarışım"

***"1 ildir ki, bizdə teatrlar fəaliyyət göstərmir, tamaşaçılar darıxıb. Əsl tamaşaçı teatr üçün darıxıb. Çünki bizə zənglər olur, internetə yazıb soruşurlar. Şeksprin vaxtında da hər yeri epidemiya bürümüşdü. Epidemiya sonrası teatrlar açılan müddətdə Şekspir ən yaxşı əsərlərini yazmışdır. Teatrlara da ən yaxşı münasibət məhz onda yaranmışdı. Əvvəl Londonda 2 teatr var idisə, sonradan sayı 12-yə çatmışdı". "Ədalət" qəzetinin qonağı Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Ədalət Hacıyevdir.***

**-Deyirlər, aktyor olmursan, aktyor doğulursan. Bu fikrə münasibətiniz ...**

-Aktyorda istedad olmalıdır. Amma bu istedadı hər gün inkişaf etdirmək lazımdır. Bunun üçün ölkəmizdə Mədəniyyət və İncəsənət Universiteti var. Baxın, 90-cı illərdə Universitetdə tədrisi rus dilində olan ixtisaslaşma bağlandı.

Hansı ki, o dövrün aktyorları vardı, işləyirdilər, baş rolu canlandırırdılar, amma görürdüm ki, savad yoxdur. 4-5 il bundan qabaq həmin adamlar 7-8 nəfər idi. O vaxt Universitetin prorektoru ilə danışdıq və rus qruplarını bərpa etdik. Bilirsiniz, necədir, Universitetlə Teatr əlaqədə olmalıdır. Elə olan halda həm dərs keçirsən, həm təcrübə. Bu çox vacib məsələdir. Məhz rus qrupları bərpa olunduqdan sonra həmin işçilər həm savad aldılar, həm də aktyor kimi çalışdılar. Bir sözlə, mükəmməl oldular.

### *"Səhnəyə qayıtmaq üçün müddət lazımdır"*

**-Bu gün teatrlarımızın qapıları bağlıdır. Karantinin davam etməsi, təbii ki, sənətə də təsir edir...**

-Belə bir söz var, ən yaxşı pianoçu ən azı gündə 1-2 dəfə pianoda ifa etməlidir. Əgər ondan onu alsanız, məşq edə bilməsə, onun üçün çətin olacaq. Söhbət ondan getmir ki, aktyor mətni əzbərləsin.

Aktyorun səhnəyə qayıdışı üçün güclü məşqlər lazımdır. Kino ilə teatrın arasında çox böyük fərq var. Sizə bir nümunə çəkim, bizdə Çexov festivalı keçirilirdi və iki tamaşa o vaxt bizim teatrda olmalı idi. Həmin festivalda Çarli Çaplinin nəvəsi iştirak edirdi. Onun nəvəsi tamaşada tək idi. Bu adam 1 gün səhərdən axşama kimi səhnədə gəzirdi. Mən ondan soruşanda ki, niyə gəzirsiniz? Dedi, mən səhnə ilə tanış olmalıyam. Səhnə məni qəbul eləməlidir. O, bütün günü səhnədə gəzirdi. Elə bil ki, divarlarla danışırdı. Bu səhnə onun deyildi. Qonaq



gəlmişdi, ona görə öyrəşirdi. Bizim aktyorlar da 1 ildir ki, evdə yoxdurlar. İndi onlar evə qayıtmalıdırlar, oraya isinməlidirlər. Səhnəyə qayıtmaq üçün müddət lazımdır. İnanıram ki, bu yaxınlarda icazə verilər ki, 3-4 nəfər aktyor gəlib məşq etsin. Bu proses olmalıdır.

**-Hələ karantindən öncəyə də nəzər salsaq, gənclərin teatrlara marağının bir o qədər də olmadığının şahidi olarıq. Az sayda gənc teatrlara üz tuturdu. Gənclərin teatrlara marağının az olmasının səbəbi nədir?**

-Mənə elə gəlir ki, bu proses vaxtaşırı baş verir. Bəlkə də, siz xatırlamazsınız.

Bir müddət video vasitəsilə film izlənməyə başlanıldı. Həmin müddət ərzində teatra maraq azaldı. Daha sonra insanlar canlı ünsiyyət istədilər və teatrlara üz tutdular. Teatrda yenidən canlanma baş verdi. Sonra internet əsri formalaşdı və teatra rəqib mühit yarandı. Deməzdim ki, bu hal daimi baş verəcək. Təbii ki, proses vaxtaşırı xarakter daşıyır. Bax, 1 ildir ki, bizdə teatrlar fəaliyyət göstərmir, tamaşaçılar darıxıb. Əsl tamaşaçı teatr üçün darıxıb. Çünki bizə zənglər olur, internetə yazıb soruşurlar. Şeksprin vaxtında da hər yeri epidemiya bürümüşdü. Epidemiya sonrası teatrlar açılan müddətdə Şekspir ən yaxşı əsərlərini yazmışdır. Teatrlara da ən yaxşı münasibət məhz onda yaranmışdı. Əvvəl Londonda 2 teatr var idisə, sonradan sayı 12-yə çatmışdı.

### *"Teatr aktyorun evi olmalıdır"*

**-Teatrınızın adı demək olar ki, qalmaqallarda hallanmayıb...**

-Mən sizinlə söhbətə başlamazdan öncə nə soruşdum, teatra münasibətiniz necədir? Bilirsiniz, bunu niyə soruşdum?! Mən Rus Dram Teatrına gələndə bu sahəyə aid biri deyildim. İxtisasca iqtisadçıyam. Mən Teatra gəlib məşqləri ki, gördüm, maraqlı gəldi. Həmin məşqlər teatrın özündən daha maraqlı idi. Sən rejissorun fantaziyasını kəşf edirsən. Bu prosesi görəndə insan xəstələnir, teatr xəstəsi olur. Teatrı istəməsən, münasibətin olmasa, heç nə də olmayacaq.

Teatra maaş almaq, pul mənbəyi kimi baxmaq lazım deyil. Teatrın mühafizəçisindən tutmuş aktyor heyətinə kimi birinci sualım həmişə o, olub ki, teatra münasibətiniz? Əgər o, hesab edirsə ki, teatr onun evidir, deməli, hər şey yaxşı olacaq. Aktyorların xarakteri fərqli ola bilər, lakin onları bir şey birləşdirməlidir-Teatra münasibət. Teatr aktyorun evi olmalıdır. Əgər teatr sənin ikinci evin deyilsə, çox çətin olur. Bu çox vacib məsələdir. Deyim ki, teatrı evi kimi qəbul etmək bir məsələ kimi ortalığa qoyulmur. Bunu sən hiss edirsən.

Hiss edirsən ki, ya evindir, ya evin deyil. Evi olmayanlar teatrdan ayrılıb gedir. Bizdə isə gedənlərin sayı azdır. Tutalım, 10 nəfər işə gəlibsə, ondan 8-i qalır.

**-Mənə maraqlıdır, bir evdə 2 yaradıcı insan. Sənət müzakirələri olurmu?**

-Bizim ailədə birinci gündən belə bir mühit formalaşdı. Brilliant xanım xoşlamır ki, mən onun işinə qarışım. Nə də o, mənim işimə qarışmır. Çox yaxşı bir mühit var. Çalışırıq ki, evimiz ayrı olsun, işimiz də ayrı. Brilliant xanımla işləyən musiqiçilər bunu yaxşı bilirlər ki, məşq olur və s. onların işlərinə qarışmıram.

Məsələn, mən deyə bilərəm ki, bu mahnını Brilliant xanımdan yaxşı oxuya bilərəm. Amma ürəyimdə (gülür). Hərdən olur ki, baxıram ki, Brilliant xanım hansısa mahnını oxumaq istəyir. Deyirəm, bu nə mahnıdır, bəstəkar yazıb?! Amma onu oxuyub düzəldəndən sonra baxırsan ki, böyük bir əsərdir.

### *"Otağımın qapısı işçilərimin üzünə açıqdır"*

**-Övladınız incəsənətdə deyil. Nə musiqidədir, nə də teatrda...**

-Övladımız beynəlxalq münasibətləri bitirib. Tarixi, siyasəti gözəl bilir. Dilləri təmiz bilir. Çox gözəl savad alıb. Hərdən gəlib teatra baxır və iradını da bildirir. Onun iradlarını dinləyirəm, qulaq asıram və nəticə çıxarıram. Bütün iradları dinləmək lazımdır. Bu bizim üçün vacibdir. Teatrda uşaq tamaşaları qoyanda baxıram ki, kimin 5-6 yaşlı uşağı var. Soruşuram ki, nəvəniz nəyi oxuyur, nə ilə maraqlanır? Tamaşanı kim üçün qoyurlar? Özün üçün qoymursan ki, tamaşaçı üçün canlandırırsan.

**-Böyük bir teatra rəhbərlik etməyin məsuliyyəti çoxdur?**

-Çox gözəl bir məsəl var. Deyirlər, uşağa tərbiyə vermək istəyirsənsə, əməlinlə onu göstər. Bu məsəl çox xoşuma gəlir.

Mən hər kəsdən tez gəlib hamıdan gec gedirəm teatrdan. Hər zaman otağımın qapısı işçilərimin üzünə açıqdır. Məndə yoxdur ki, 2-ci gün, yaxud 4-cü gün saat 5-də qəbuldur. Aktyorlar yaradıcı insanlardır, onların məşqləri ola bilər. Ona görə də nə zaman istəsələr, rahatlıqla gəlib fikir söyləyə bilərlər.

**-Çox sağ olun ki, dəvətimi qəbul edib mənə müsahibə verdiniz...**

-Mən sizə təşəkkür edir və kollektivinizə uğurlar arzulayıram.

**Rövşən Tahir**

---



# "Allah İlhaməyə analıq hissini rəva bilmədi"

**"İlhamə haqqımda söyləmişdi ki, Flora 7 dəfə ərə gedib. Taleyi Allah yazıb, mən də yaşamışam. İlhaməyə bir ər də qismət olmadı".**

Adalet.az saytı xəbər verir ki, bu sözləri Respublikanın Xalq artisti Flora Kərimova "ATV Maqazin Onlarla" verilişində qonaq olarkən mərhum sənətkar İlhamə Quliyeva barədə söyləyib:

"Millətim məni bağışlasın, ər məşuq deyil. Sən mənə deyirsən ki, 7 dəfə ərə gedib?! Mən ana olmuşam. Mən evimin xanımı da olmuşam, qulluqçusu da. Sənin payına nə düşdü?! Sən nigaran qaldınmı, övladın məktəbə gedəndə ac qalar?! Sən o hissi yaşadınmı?!

Allah İlhaməyə analıq hissini rəva bilmədi. Ona o xoşbəxtliyi rəva bilmədi.

Mən ər çörəyi yemişəm. 15 ərim olsa da, 50 ərim olsa da, ər çörəyi yemişəm. Əgər Allah mənim çörəyimi kəsərsə, millətimin çörəyini yeyərəm. Mən küçə sərgüzəştlərinin çörəyini yemərəm.

Sağlığında mənimlə barışmaq üçün çox cəhdlər elədi. Televiziyada gah qızımı təriflədi, gah da məni. Yanıma adam göndərirdi. Amma bağışlamadım. Bağışlamaq o dediyi sözləri boynuma alıb səsləndirdiyi sözlərə layiq olmaq deməkdir. Mən necə bağışlayım?!

İlhamə ilə danışmasam da, ifasını bəyənirdim. Vəfatından sonra mahnısını bir-iki nəfər oxudu, amma heç yapışmadı mənə. Mahnını elə oxuyurdu ki, doğrudan da, yanırdı. O hərdən elə oxuyurdu ki, adamın ürəyi ağrıyırdı. Amma nə olsun, xasiyyəti xasiyyət deyildi".

**Rövşən Tahir**

---

# "Sevgi olan yerdə xoşbəxtlik var"

**14 fevral-dünyanın sevgiyə büründüyü bir gündə Azərbaycan şou-biznesinin nümayəndələri sevgilərini sosial media hesabları vasitəsilə çatdırdılar. Onlar sevginin mənasını müxtəlif məfhumlarla izah edib dilə gəldilər.**



İş xanımı Ruhi Əliyeva: "Sevgi Allahın bizə bəxş etdiyi ən gözəl nemətlərdən biridir. Dünyada olan bütün canlıların-insanın, heyvanın, təbiətin sevgiyə, qayğıya ehtiyacı var. Sevgi olan yerdə mərhəmət, mərhəmət olan yerdə isə xoşbəxtlik var. Bu hisslərdən məhrum olan insan, düşünürəm, həyatda ən təhlükəli insandır. Gözəl dəyərləri qəlbinizdən heç zaman əksik etməyin. Hər zaman sevgi ilə qalın".

Müğənni Sevda Yəhyayeva: "Məhəbbət haqqında danışmağa ehtiyac yoxdur, çünki onun öz səsi var və öz yerinə özü danışır. Məhəbbətdən imtina etmək olmaz, çünki o, yaşamımızın qidasıdır. Bu ülvi hissləri yaşamağı hər kəsə arzu edirəm".

Prodüsser Təranə Səmədova: "Bu həyatda ən çox əziyyət çəkdiyim məqamlardan biri kiməsə sevgi bəsləməmişdən öncə ən çox özümü sevmək oldu. 37 yaşıma çatıram, hələ də ilk növbədə özümü sevməyi özümə təlqin edib bitirə bilməmişəm. Daim fədakar oldum və hər dəfəsində də sonunda buna görə əziyyət çəkdim. İlk 14 fevraldır ki, təbrik mesajlarını məni sevən insanlardan alıram. Məhz mənim sevdiyim şəxsdən yox. Bütün sevənləri və sevilənləri təbrik edirəm".

**Rövşən**

---

# Erməni vəhşiliyindən qaçan uşağın qəribə taleyi: Kiçik rolların böyük ustadı Muxtar Avşarov - 107

**Maraqlı, baxımlı, baxıldıqca da təkrar baxılmasına ehtiyac duyulan, sevilən ekran əsərləri mədəniyyət və incəsənətimizi hər zaman dəyərli edib. Təbii ki, tamaşaçı rəğbəti qazanmış hər bir ekran əsərinin arxasında istedadlı ssenari müəllifi, istedadlı rejissor, istedadlı operatordan sonra , mütləq istedadlı aktyor truppası durur. Məhz istedadlar sayəsində ekran əsərləri mövzu, zövq, janr, aktuallıq baxımından fərq qoyulmadan sevilir.**

Bənzərsizliyi, təkrarolunmaz yaradıcılığı ilə Azərbaycan teatr və kino sənətinin inkişafına təkan verməsi ilə seçilən sənətkarlarımızdan biri də xalq artisti Muxtar Avşarovdu . Mən tamaşaçı olaraq onu bir aktyor kimi " Kişi sözü" filmindən sonra fərq edib , sevmişəm.

Filmin qəhrəmanı Qasımın atası Ələmdar kişi epizodik rol olsa da, filmdə həm öz bacısına, həm də Qasıma müraciət etdiyi bu ifadələrlə yaddaşıma yazıldı: "Əşi sən də yuyulmamış çömçə kimi özünü ortaya soxma";"Ərə gedən Solmazdı, Nəbi döyül haa"; "Sözdü də, hirsləndin çıxdı ağzından. Mən indi hirsləndim dedim vurum bibini öldürüm, sonra da əsəbim yatdı. İndi nə deyirsən, onda da vurub bibini öldürüm?"; "Sənə qalsa gərək dünyada hər şey düz ola. Ağaclar da düpbədüz ola, kölgə salmaya"

### *Erməni vəhşiliyindən qaçan uşağın qəribə taleyi*

90 illik ömrünün 60 ilini aktyorluq sənətinə həsr etmiş Muxtar Həsən oğlu Avşarov 1914-cü il fevralın 15-də İrəvan şəhərində dünyaya göz açıb.

İrəvanda anadan olub. 1918-ci ildə ermənilərin soyqırım siyasəti nəticəsində qohum-qardaşlarını itirən yüzlərlə soydaşlarımızdan biri kimi onların da sağ qalan ailə üzvləri Türkiyəyə üz tutub və ara sakitləşəndən bir müddət sonra Gəncə şəhərinə pənah gətiriblər. 9-cu sinfi bitirdikdən sonra babasının təşəbbüsü ilə Bakıya gələrək sənət məktəbində təhsil almağa başlayıb. Hələ məktəbli vaxtlarından incəsənətə, teatra olan həvəs onu rahat buraxmadığından boş vaxtlarında Dəmiryolçuların Mədəniyyət evində fəaliyyət göstərən Ağasəlim Manaflının dram dərnəyində aktyor kimi səhnəyə çıxır. Çox keçmir ki, dərnəyə Ülvi Rəcəb rəhbərlik etməyə başlayır. Muxtar Avşarov ilk teatr təhsilini elə bu sənətkardan alır.

İlk olaraq A.Şirvanzadənin "Namus" pyesi tamaşaya qoyulur və pyesdəki Sumbat rolu ona tapşırılır. 1933-cü ildə sənət



məktəbini bitirib Gəncəyə qayıdan Muxtar Avşarov Gəncə paravoz deposunda maşinist köməkçisi işləməklə yanaşı, Dəmiryolçuların Gənc Tamaşaçılar Teatrında aktyor kimi fəaliyyətini davam etdirir. 1936-cı ildə Moskvaya iki aylıq mədəni-maarif kursuna göndərilir və oranı bitirdikdən sonra Gəncə Mədəniyyət evində kütləvi işçi vəzifəsinə təyin edilir. Bir müddətdən sonra Gəncə Dövlət Dram Teatrına dəvət edilir. Aktyor Gəncə Teatrında 100-dən artıq rolda oynayıb. Böyük Vətən müharibəsi başlayandan üç gün sonra onu həbs edirlər. Səbəb bu idi ki, Muxtar Avşarov ictimai yerlərdə Gəncənin adının dəyişdirilərək Kirovabad qoyulmasına və Gəncə Teatrına Beriyanın adının verilməsinə etiraz edib. 6 il həbsdə yatan Muxtar Avşarov vaxtından 5 il əvvəl azadlığa buraxılır. Onun qayıdışı ilə Gəncə Teatrı S.S.Axundovun "Eşq və intiqam" əsərini tamaşaya qoyur və əsas rolu oynamaq ona tapşırılır. Tamaşanın ertəsi günü onu yenidən teatrdan azad edirlər.

### *50 yaşında yaradıcılıq uğurları*

**Kinoşünas Xədicə Qiyas yazır:** "Və bir gün bu səbrinə görə mükafatını alır - Gəncə Teatrının rəhbərliyi aktyorun yenidən teatra qayıtmasına şərait yaradır. Aktyor səhnəyə dönüşündən sonra yeni-yeni tamaşalarda yaddaqalan obrazlar yaradır, Gəncə Teatrında 100-dən artıq tamaşada öz sözünü deyir". Kinoşünas daha sonra qeyd edir: "1968-ci ildə Akademik Milli Dram Teatrının səhnəsinə çıxanda Muxtar Avşarovun yaşı artıq 50-ni keçmişdi. Azərbaycanfilm" kinostudiyasından gələn təkliflər getdikcə artırdı. Akademik Milli Dram Teatrı və ya Azdrama ölkənin əsas teatr məbədi idi, səhnəsindən milli teatrın korifeylərinin keçdiyi bu teatr hər bir sənətkarı, xüsusilə də əyalət teatrının aktyorunu maqnit kimi özünə cəzb etməyə bilməzdi. Əslində, ömrünün sonuna qədər oradan uzaqlaşmazdı, ancaq 1989-cu ildə teatrın o dövrdəki rəhbərliyin təkidi ilə Azdramadan getməli olur. Gəncə Teatrında 1960-cı ildə əməkdar artist adını alan Muxtar Avşarov 42 il sonra - məhz Amaliya xanımın teatrında 2002-ci ilin dekabrında xalq artisti fəxri adına layiq görülür" . İki il sonra - 2004-cü ilin 6 dekabr günü milli teatrımızın son korifeylərindən olan xalq artisti Muxtar Avşarov əbədi olaraq gözlərini dünyaya yumur...

### *Sevimli aktyoru sevdirən filmlər*

***Muxtar Avşarov "Azərbaycanfilm"in çəkdiyi bir çox filmlərdə yaddaqalan obrazlar yaratmışdı. Əksər rolları epizodik olsa da, aktyor kiçik rolu cilalayaraq onu unudulmaz etməyi bacarırdı.***

Mərhum aktyorun kinodakı fəaliyyəti 40 illik bir dövrü əhatə edirdi. Muxtar Avşarov kinoya gec - 41 yaşında gəlmişdi, amma 90 yaşınadək filmlərə çəkilmişdi.

**Avşarovun filmləri: "Yenilməz batalyon" (1965), "Dəli Kür" (1969), "Sevil" (1970), Yoxlanılmış, inanılmış..."(1971), "Ulduzlar sönmür" (1971), "Gün keçdi" (1971), "Axırıncı aşırım" (1971), "Gilas ağacı" (1972), "Xatirələr sahili" (1972), "Qatır Məmməd" (1974), "Tütək səsi" (1975), "Sarıköynəklə Valehin Nağılı" , "Yollar görüşəndə"... (1979), "Ad günü" (1977) , "Arxadan vurulan zərbə" (1977), "Babamızın babasının babası" (1981), "Birisigün, gecəyarısı" (1981), "Cin mikrorayonda" (1985), "Qanlı zəmi" (1985), "Qızıl uçurum" (1980), "Etiraf" (1992), "Gözlə məni"(1980), "Qara gölün cəngavərləri"(film, 1984), Qanlı zəmi (film, 1985), "Qəm pəncərəsi" (1986), "Kişi sözü" (1987), "İşarəni dənizdən gözləyin" (1986), "Qəm pəncərəsi" ( 1986), "Qətl günü" (1990), "Hacı Qara" (2002), "Güllələnmə təxirə salınır"(2003) və sair ekran əsərlərində o böyük aktyoru xatırladacaq obrazlara rast gələ bilərsiniz.**

**Əntiqə Rəşid**

---

## *AFFA-dan VAR sistemi ilə bağlı açıqlama*

**Azərbaycan VAR (video-köməkçi hakim) sisteminin tətbiq olunması ilə bağlı bu gün FIFA ilə video-konfrans formatında ilk görüş keçirilib.**




Qol.az xəbər verir ki, proses bu ilin martından mərhələli şəkildə təmin olunacaq.

Birinci mərhələdə ali futbol qurumu VAR-la bağlı ilkin rəy verəcək və bu, 1,5-3 ay davam edəcək. İkinci etapda müvafiq bəyannamə qəbul olunacaq. Hazırlıq və məşq mərhələsindən sonra layihə təsdiqlənəcək.

Sonuncu - 5-ci isə monitorinq və nəzarət mərhələsidir ki, bu da davamlı şəkildə keçiriləcək.

Qeyd edək ki, pandemiya ilə əlaqədar göstərilmiş müddətlərdə müəyyən gecikmələr ola bilər.

## *UEFA klublarımıza pul ödədi*

**UEFA Azərbaycan Premyer Liqasında çıxış edən, lakin UEFA Çempionlar Liqası və Avropa Liqası turnirlərinin qrup mərhələsində iştirak etməyən klublara 2019/20-ci il mövsümünü əhatə edən qurumun "Həmrəylik ödəmələri və uşaq futbolunun inkişafı" proqramı çərçivəsində əlavə maliyyə vəsaiti ayırıb.**

Qol.az xəbər verir ki, vəsait AFFA-nın vasitəçiliyi ilə klubların hesabına köçürülüb.

"Qarabağ" ötən mövsüm Avropa Liqasının qrup mərhələsində oynadığı üçün bu komandaya pul ayrılmayıb. Premyer Liqanın digər 7 təmsilçisinin - "Neftçi", "Səbail", "Qəbələ, "Zirə", "Sumqayıt", "Sabah" və "Keşlə"nin hər birinə isə 74 633 71 avro ödənilib.

Qeyd edək ki, "Keşlə" üçün nəzərdə tutulmuş vəsait aylıq cari xərcləri ödəmək üçün növbəti aylarda Futbolun İnkişaf Fondundan klubun hesabına köçürüləcək.

---

Leytenant Abbasov Eldar Əlləddin oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

***

Mösümzadə Mirqədir Famil oğlunun adına verilmiş Fövqəladə Hallar Nazirliyinə məxsus iş vəsiqəsi (№ A1013322) itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Memarlıq və Dizayn fakültəsinin tələbəsi İsmayılov Mustafa Alim oğluna məxsus tələbə bileti (MD20-059) itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 62
Çapa imzalanmışdır: 15.02.2021